

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP İdarə Heyətinin növbəti iclası keçirilib



3

№ 108 (7033)

SƏS

21 iyun 2024-cü il.
Qiymətı 60 qəpik

## "Şimali Kipr - Türk dünyasının bir hissəsi: Azərbaycan ilə ŞKTR arasında əlaqələr uğurla inkişaf edir"



2

Türkiyənin aparıcı telekanalı Azərbaycan-ŞKTR dialoquna dair reportaj yayımlayıb

# Tükənmiş və çirkin "qoca qitə"...




9

## Əvvəl Lalə və Kamil, indi Şərəf və Müyəssər



15

## Toy adətlərimiz: yaşatdıqlarımız, unutduqlarımız...



13

## "Ermənistan təxribatlar və manipulyasiya dolu fikirlər əvəzinə, sülh prosesinə töhfə verməlidir"



2

## Abituriyentlər ixtisas seçimini necə etməlidirlər?



16

## Cəmil Həsənli indi də milli musiqimizi təhqir edir





14

# "Şimali Kipr - Türk dünyasının bir hissəsi: Azərbaycan ilə ŞKTR arasında əlaqələr uğurla inkişaf edir"

## Türkiyənin aparıcı telekanalı Azərbaycan-ŞKTR dialoquna dair reportaj yayımlayıb

**Türkiyənin aparıcı xəbər telekanalı olan "TRT Haber" Azərbaycan ilə Şimali Kipr Türk Respublikası (ŞKTR) arasında dialoqun inkişafı mövzusunda geniş reportaj hazırlayıb. AZƏRTAC xəbər verir ki, "Şimali Kipr - Türk dünyasının bir hissəsi: Azərbaycan ilə ŞKTR arasında əlaqələr uğurla inkişaf edir" adlı materialda Azərbaycan Prezidenti İlham Əliyevin türk dövlətləri ilə əlaqələrin inkişafına yönəlmiş kursu yüksək qiymətləndirilir, Azərbaycanın Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlığı prioritet hesab etməsinə dair dövlətimizin başçısının fikirlərindən sitat təqdim olunur: "TDT bizim üçün əsas beynəlxalq təşkilatdır. Çünki bu, bizim ailəmizdir".**



Telekanalın hazırladığı süjetdə Bakının ŞKTR ilə türk dövlətləri arasında dialoqun genişləndirilməsi istiqamətində fəal siyasəti vurğulanır.

Azərbaycanın Kiprin türk xalqının qarşısında duran və beynəlxalq aləmdə ŞKTR-in maraqlarını müdafiə edən maneələrin aradan qaldırılmasına verdiyi töhfə də qeyd olunur. Materialda, həmçinin Bakı ilə Lefkoşa arasında parlamentlərarası əlaqələrin genişləndiyi diqqətə çatdırılır.

Reportajda Dumlupınar Universitetinin (Kütahya) müəllimi, elmlər doktoru Barış Adıbelli ilə müsahibə də yer alıb. O, Bakı ilə Lefkoşa arasında dialoq baxımından 2024-cü ilin dönüş nöqtəsi olduğunu bildirib. Ekspert, habelə Milli Məclisin ŞKTR ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasına dair qərarını yüksək qiymətləndirib. Onun sözlərinə görə, Azərbaycanın tarixi Qələbəsindən sonra Bakı ilə Lefkoşa arasında münasibətlərdə müsbət dönüş yaranıb. Adıbelli bildirib ki, bu tendensiya Şuşa Bəyannaməsinin imzalanması və TDT ölkələri arasında əlaqələrin möhkəmlənməsi ilə daha da güclənib. "Qarabağın işğaldan azad edilməsi Türk dünyasının ən böyük problemini TDT gündəmindən çıxarmağa imkan verdi. ŞKTR-in tanınmasının vaxtıdır", - deyə Dumlupınar Universitetinin müəllimi bildirib.

# Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının İqlim Fəaliyyəti Forumunun açılış mərasimi keçirilib






Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) təşkil etdiyi QHGT İqlim Fəaliyyəti Forumunun açılış mərasimi olub. Tədbirdə COP29-un İqlim üzrə gənclər çempionu, QHGT-nin sədri Leyla Həsənova gənclərin qlobal problemlərin həllində iştirak etmələrinin son dərəcə vacib olduğunu bildirib. "Bu gün biz iqlim dəyişikliyi ilə bağlı yeni normanı modelləşdiririk. Biz başa düşürük ki, bu mübarizə bütün səviyyələrin, o cümlədən gənclərin və uşaqların iştirakını tələb edir", - deyə L.Həsənova diqqətə çatdırıb. Sonra QHGT-nin son dövrlərdə fəaliyyətini və tədbirin loqo konsepsiyasını əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev dünyanın gələcəyi olan gənc liderlərin dinamik və yaradıcı qüvvəsinin beynəlxalq iqlim danışıqlarında mühüm rol oynadığını bildirib. Nazir, həmçinin gənclərin iqlim fəaliyyətində iştirakının vacibliyini xüsusi vurğulayıb. Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov gəncləri tədbirdə fəal iştirak etməyə çağırıb, bütün iştirakçılara uğurlar arzulayıb.

COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev çıxışında Qoşulmama Hərəkatına üzv dövlətlərin gənclərinin iqlim dəyişikliyi və ətraf mühitin davamlılığı məsələlərinə yönəlmiş müzakirələrə cəlb olunmalarının önəmindən bəhs edib. O, 121 ölkənin gənclərini birləşdirən ən böyük beynəlxalq gənclər təşkilatı olan QHGT platformasının gənclərin iqlim fəaliyyətinə cəlb edilməsinin əhəmiyyətini vurğulayıb.

Açılış mərasimindən sonra tədbir "Boşluqların doldurulması: iqlim dəyişikliyinə uyğunlaşma və dayanıqlılıq tədbirlərində gənclərin mənalı iştirakının genişləndirilməsi" mövzusuna həsr olunmuş panel müzakirələrlə davam edib.

QHGT-nin protokol və tədbirlərin təşkili üzrə meneceri Nəzrin Qasımovanın moderatorluğu ilə keçirilən tədbirdə çıxış edən ADA Universitetinin prorektoru Fariz İsmayılzadə iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün ali təhsil ocaqlarında elmi araşdırmaların aparılmasının vacibliyini bildirib. Deyib ki, ADA Universiteti bu məsələ ilə bağlı seminarlar keçirir, xarici ali təhsil müəssisələri ilə əməkdaşlıq edir. Eyni zamanda, iqlim dəyişikliyi gündəliyini irəliləmək baxımından dünyanın müxtəlif yerlərindən olan elm adamları ilə əlaqələr qurur.

Fariz İsmayılzadə gəncləri iqlim dəyişikliyi ilə bağlı daha çox məlumat əldə etməyə çağıraraq deyib: "Biz birlikdə böyük nəticələr əldə edə bilərik". BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva bildirib ki, COP29 gənclərin səsini eşitmək üçün gözəl fürsətdir.

Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə bağlı məsələlərin həllinə cəmiyyətin bütün üzvləri, xüsusilə gənclər cəlb edilməlidir. "Gənclərə və uşaqlara sərmayə qoymalıyıq. Bu, əsasən təhsildən ibarətdir. Biz iqlim dəyişiklikləri ilə mübarizəni gündəlik həyatlarına daxil etməyi uşaqlara öyrətməliyik. Həmçinin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri daha da inkişaf etdirməliyik".

COP29-un adaptasiya, itki və zərər üzrə aparıcı danışıqçısı Elvin Əşrəfzadə çıxışında gənclərin iqlimlə bağlı danışıqlara cəlb olunmalarına böyük əhəmiyyət verildiyini diqqətə çatdırıb. Panel iclası müzakirələrlə davam edib.

Bakı və Şamaxı şəhərlərində beş gün davam edəcək Foruma QHGT-nin bir sıra Milli Bölmələrinin nümayəndələri, yerli və əcnəbi gənclər, həmçinin dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələri kimi yüksək səviyyəli qonaqlar və ekspertlər qatılıblar. Tədbirin proqramına liderlik bacarıqlarını artırmaq, mədəni mübadiləni təşviq etmək və xüsusilə mühüm qlobal problemlərin həlli üçün nəzərdə tutulmuş müxtəlif sessiyalar daxildir.

Qeyd edək ki, Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə yaradılıb. 2022-ci ilin iyulunda 60 dövlətin gənc nümayəndələrinin iştirakı ilə keçirilən Qoşulmama Hərəkatın Gənclər Sammiti zamanı Şəbəkənin təşkilata çevrilməsinə dair yekun sənəd olan Şuşa Akkordu qəbul edilib. Hazırda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının üzv dövlətlər üzrə 59 Milli Bölmə nəzdində fəaliyyət göstərən yüzlərlə fəal üzvü Qoşulmama Hərəkatı ölkələri arasında beynəlxalq dialoqa təkan verir.

# "Ermənistan təxribatlar və manipulyasiya dolu fikirlər əvəzinə, sülh prosesinə töhfə verməlidir"



"Ermənistan Xarici İşlər Nazirliyinin bu ölkənin silahlanması səylərinə bəraət qazandıran 19 iyun 2024-cü il tarixli bəyanatını qətiyyətlə rədd edirik. Kütləvi silahlanma siyasətinin Ermənistanın suveren hüququ olması barədə iddia ilə əlaqədar qeyd edək ki, məhz nəyə görə Ermənistan tərəfindən bu addımların atılmasının qeyri-legitim olduğu və ölkəmizə qarşı təhlükə yaratdığı hər kəsə məlum olmalıdır."

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bu sözləri Ermənistanın Xarici İşlər Nazirliyinin 19 iyun tarixli bəyanatına dair şərhində bildirib.

O deyib: "30 il ərzində məhz beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan, bu gün dəfələrlə istinad etdiyi Alma-Ata bəyannaməsinə zidd olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı təcavüz törədən, qonşularına qarşı ərazi iddialarını davam etdirən, öz təcavüzkar əməllərini məhz Azərbaycan tərəfindən atılmış addımlar nəticəsində dayandıran Ermənistanın sülhpərvər ölkə imici yaratması siyasi manipulyasiyadır.

1991-ci ilin sərhədləri və Alma-Ata bəyannaməsi əsasında ərazi bütövlüyünə istinad edən Ermənistan tərəfinin son 30 ildən artıq müddətdə nəyə görə bu razılıqlara əməl etmədiyinə, Sovet xəritələrində əksini tapmış sərhədləri qəbul etməkdən imtina etdiyinə, Azərbaycan ərazilərini işğal etdiyinə izahat verməsi daha yaxşı olardı.

Heç bir sərhəd tanımayan Ermənistanın Azərbaycan hərbçilərinin 30 ildən sonra yerləşdiyi mövqeləri delimitasiya olmadan öz kəndlərinin əraziləri kimi təqdim etməsi və Azərbaycanı işğalda təqsirləndirməsi absurddur.

Guya sülhü dəstəkləyən və Ermənistanın məhz müdafiə qabiliyyətini artırmağa yönəlmiş bəyanatlarına zidd olaraq, Ermənistanın ölümcül hücum silahları ilə təchiz edilməsində yarışan Fransa kimi ölkələrin Ermənistanın yeni gərginlik və təhdid mənbəyinə çevrilməsinə xidmət etdiyi bəllidir. Bu siyasətin Ermənistanın növbəti mümkün təcavüzünə töhfə verdiyini nəzərə alaraq, nə qədər ki gec deyil, bu addımlardan çəkinilməsi əhəmiyyət kəsb edir.

Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

Ermənistan Xarici İşlər Nazirliyinin bu problemin göz ardı edilə biləcəyi ilə bağlı məntiqi, bu ölkənin dayanıqlı sülhdə maraqlı olmadığını və yalnız bu vəziyyəti gələcəkdə yenidən Azərbaycana qarşı təcavüzə başlamaq üçün ehtiyat variant kimi saxlamağa çalışdığını göstərir.

Qeyd edilənləri nəzərə alaraq, bu ölkənin Azərbaycan tərəfinin sülh prosesində səmimiliyini şübhə altına almağa heç bir mənəvi əsası yoxdur.

Ermənistanın bölgədə yeni gərginlik yaratmaq, sülh və sabitliyə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasətin heç bir nəticə verməyəcəyini bir daha bəyan edirik. Ermənistan tərəfi bu kimi təxribatlar və Azərbaycana qarşı siyasi manipulyasiya dolu fikirlər əvəzinə, sözdə deyil, əməldə beynəlxalq öhdəliklərə riayət etməli və sülh prosesinə töhfə verməlidir".

# YAP İdarə Heyətinin növbəti iclası keçirilib

İyunun 20-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. İclasın gündəliyi barədə məlumat verən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər tarixi qələbələr əldə edilmiş, ictimai-siyasi həyatın, dövlət idarəçiliyinin bütün sahələrində çoxşaxəli və məqsədyönlü islahatlar uğurla və ardıcıl şəkildə həyata keçirilmişdir: "Bunun nəticəsi olaraq ölkəmiz özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 2020-ci ildə Vətən müharibəsində qazanılmış şanlı Zəfər nəticəsində Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyulmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmiş, beynəlxalq hüququn norma və prinsiplərinin aliliyi təmin olunmuşdur. 2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirləri ilə qanunsuz silahlı birləşmələr zərərsizləşdirilmiş, kriminal xunta rejiminin fəaliyyətinə son qoyulmuş, dövlətimizin suverenliyi onun bütün ərazisində bərqərar edilmişdir. Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri davam etdirilir, doğma yurd-yuvasından didərgin salınaraq illərlə məcburi köçkün həyatı yaşamağa məhkum olunmuş soydaşlarımız ləyaqətli şəkildə əzəli torpaqlarına qayıdırlar. Müstəqillik tariximizdə ilk dəfə bütün ölkə ərazisində 2024-cü ildə keçirilmiş Prezident seçkiləri milli birlik və həmrəyliyimizin növbəti təzahürü olmuşdur".








YAP Sədrinin müavini vurğulayıb ki, ölkəmizin dünyada nüfuzunun daha da yüksəlməsinə və beynəlxalq ictimaiyyətin Azərbaycana etimadının daha da güclənməsinə növbəti dəfə 2023-cü ilin dekabrında şahidlik etdik: "Belə ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər beynəlxalq tədbirlərin 2024-cü ilin noyabr ayında Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilmişdir. Azərbaycanın qlobal tədbirlərə ev sahibliyi sahəsində böyük təcrübəyə malik olmasını, həmçinin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edərək iqlim dəyişmələrinə qarşı fəal mübarizə mövqeyi nümayiş etdirməsini nəzərə alaraq, COP29-un da ən yüksək səviyyədə keçiriləcəyinə və yeni uğura imza atılacağına əminik. Bu tədbirlər on minlərlə xarici qonağa Azərbaycanı yaxından tanıtmaq, ölkəmizin bütün dünyada ədalətli sülhə, bərabərliyə, haqqa və hüquqa əsaslanan münasibətləri təbliğ və təşviq edən mövqeyini çatdırmaq üçün əlverişli fürsət olacaqdır".

Tahir Budaqov əlavə edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının və digər mötəbər beynəlxalq tədbirlərin keçiriləcəyi vaxtda - 2024-cü ilin noyabr ayında Azərbaycan Respublikası Konstitusiyasının 981 maddəsinin II hissəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər keçirilməlidir: "Həm seçkilərin, həm də qeyd olunan tədbirlərin yüksək səviyyədə təşkili mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, həmin dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının məqsədəmüvafiqliyi də nəzərə alınmalıdır. Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisi fəaliyyət dövrü ərzində dövlətin daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək, dövlət idarəetməsinin təşkili və daha da təkmilləşdirilməsi fəaliyyətində yaxından iştirak etmək, yerlərdə seçicilərlə müntəzəm iş aparmaq, həmçinin parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə olunması sayəsində milli maraqları beynəlxalq məkanda təəssübkeşliklə təmsil etməklə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır. Hesab edirik ki, indiki şəraitdə də Milli Məclis dövlət maraqlarını üstün tutaraq Milli Məclisin buraxılması və seçkilərin daha erkən keçirilməsi təşəbbüsü ilə çıxış etməlidir".

Sonra YAP Sədrinin müavini Əli Əhmədov, YAP İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Musa Quliyev, Elşad Mirbəşiroğlu, Kamal Cəfərov, Anar İsgəndərov, Tahir Mirkişili və Bahar Muradova parlament seçkilərinin önə çəkilməsinin məqsədəuyğunluğunu əsaslandıraraq məsələyə münasibət bildiriblər.

Yekunda Yeni Azərbaycan Partiyasını Azərbaycan Respublikasının Milli Məclisində təmsil edən deputatlara altıncı çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət olunması üçün təşəbbüs göstərmələrinin tövsiyə edilməsi barədə yekdil qərar qəbul edilib.

# YAP nümayəndələri Rusiyanın Vladivostok şəhərində keçirilən beynəlxalq forumda iştirak ediblər

Milli Məclisin deputatları, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Elşad Mirbəşiroğlu və YAP Təftiş Komissiyası sədrinin müavini Nizami Səfərov iyunun 17-də Rusiya Federasiyasının Vladivostok şəhərində keçirilən "Qlobal əksəriyyət çoxqütblü dünya tərəfdarıdır" mövzusunda siyasi partiyaların beynəlxalq forumunun iclaslarında iştirak ediblər. "BRICS+" formatında keçirilən və 32 ölkədən 150-dən çox nümayəndənin iştirak etdiyi tədbirin "Dünya dövlətlərinin informasiya məkanında məsuliyyətli davranışı geniş rəqəmsallaşma şəraitində hamının bərabər olduğu dünya düzəninin qurulmasının zəruri şərti kimi" mövzusunda plenar iclasında çıxış edən YAP İdarə Heyətinin üzvü Elşad Mirbəşiroğlu qeyd edib ki, BMT-nin üzvü olan dövlətlər arasında informasiya məkanında məsuliyyətli davranış prinsipləri haqqında sazişin olmasına baxmayaraq, bu sahədə təhlükəsizliyin təmin edilməsi prinsiplərinin qəsdən pozulması halları tez-tez müşahidə olunur. Onun sözlərinə görə, bəzi güclü ölkələr texnoloji üstünlükdən istifadə edərək öz iradələrini digər dövlətlərə diktə etməyə və onların daxili siyasətinə təsir göstərməyə çalışırlar.






E.Mirbəşiroğlu müstəqil siyasət yürüdən Azərbaycanın informasiya məkanında təhdidlərlə üzləşmək risklərinin yüksək olduğunu vurğulayıb: "Ötən il 1192 xüsusi təhlükəsizlik göstəricisi bloklanıb ki, bu da dövlət qurumlarını məqsədyönlü kiberhücumlardan qorumağa imkan verib. Həmçinin Azərbaycanın domen zonasında qeydiyyatdan keçmiş 97 informasiya resursu kiberhücumlara məruz qalıb. Bu faktlar informasiya məkanında təhlükəsizlik məsələsinin daha ciddi olduğunu göstərir. Müvafiq olaraq, Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır. Azərbaycan Prezidenti "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nı təsdiq edib. Bu strategiya ölkənin informasiya məkanının təhdidlərdən qorunması, informasiya təhlükəsizliyi sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi və bu sahədə qarşıda duran vəzifələrin müəyyən edilməsi məqsədilə qəbul edilib".

O, kibercinayətkarlıqla daha effektiv mübarizə aparmaq üçün ölkələr arasında təcrübə mübadiləsinin əhəmiyyətini xüsusi vurğulayıb.

"BRICS və tərəfdaş ölkələr - dünyanın əksəriyyətini təşkil edən dövlətlər arasında dialoqun inkişafı üçün uğurlu platforma" mövzusunda keçirilən plenar iclasda da çıxış edən E.Mirbəşiroğlu dünyada çoxqütblü sisteminin yaranması prosesinin dönməz xarakter aldığını, belə dünya nizamı çərçivəsində milli dövlətlərin öz maraqlarını və təhlükəsizliklərini daha etibarlı şəkildə təmin etmək imkanına sahib olacaqlarını söyləyib. O xüsusi olaraq qeyd edib ki, Azərbaycan Respublikası hər zaman xalqlar və dövlətlər arasında dialoq mühitinin yaradılması və inkişaf etdirilməsinin tərəfdarıdır, öz təşəbbüsləri ilə buna dəstək olur.

YAP Təftiş Komissiyası sədrinin müavini Nizami Səfərov isə forumun "Bölünməz və bərabər təhlükəsizlik həqiqi və davamlı beynəlxalq sülhün başlıca prinsipidir" mövzusunda plenar iclasında çıxış edərək bəzi dövlətlərin təhlükəsizliyinin digər dövlətlərin təhlükəsizliyi hesabına təmin edilməsinin yolverilməz olduğunu, bu prinsipin bütün səviyyələrdə, o cümlədən regional kontekstdə tətbiqinin əhəmiyyətini vurğulayıb. Onun sözlərinə görə, qarşıdurma siyasətindən uzaqlaşmaq, gərginliyin azaldılması, uzun müddət ərzində yığılıb qalmış problemlərin həlli dünyanın müxtəlif regionlarında, o cümlədən Cənubi Qafqazda yerləşən ölkələrin maraqlarına uyğundur.

"Bu gün bizim Azərbaycanla Ermənistan arasında münasibətlərdə mövcud olan, demək olar ki, bütün problemlərin həllini normal diplomatik kanallara çəkmək üçün unikal imkanımız var. Dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası prosesinin başlanması, sülh müqaviləsinin hazırlanması baxımından müvafiq strukturlar vasitəsilə təmasların olması, Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması və iqtisadi əlaqələrin bərpası üzrə üçtərəfli işçi qrupunun iclaslarının keçirilməsi onu göstərir ki, yalnız öz maraqlarını güdən bəzi regiondankənar oyunçuları dövlət sərhədlərinin müəyyənləşdirilməsinə cəlb etmədən birbaşa qarşılıqlı fəaliyyət çoxdan gözlənilən sülhün bərqərar olması və uzunmüddətli beynəlxalq təhlükəsizlik rejiminin formalaşdırılması üçün optimal variantdır", - deyən N.Səfərov Azərbaycanın tarixi qələbəsi sayəsində Cənubi Qafqazda dayanıqlı sülh və təhlükəsizliyin bərqərar olması üçün əlverişli şəraitin yarandığını vurğulayıb.

Forum çərçivəsində "Millətlərin azadlığı naminə!" - neokolonializmin müasir təcrübəsi ilə mübarizə tərəfdarlarının Forumunun Daimi Komitəsinin ilk əyani iclasında iştirak edən Nizami Səfərov yeni yaradılan Komitənin və onun nəzdindəki ekspert şurasının tərkibinə üzv seçilib.

Daimi Komitə iclasında müstəmləkəçilik dövründə bir sıra xalqlara qarşı törədilmiş cinayətlərə hüquqi qiymət verilməsi və onlara kompensasiya ödənilməsi məsələləri müzakirə edilib, müasir dövrdə dekolonizasiya probleminin hüquqi platformada həll edilməsinin vacibliyi xüsusi vurğulanıb. İclasda çıxış edən YAP Təftiş Komissiyası sədrinin müavini N.Səfərov Azərbaycanın neokolonializm və onun müxtəlif təzahürlərinə qarşı mübarizə sahəsində gördüyü işlərdən ətraflı bəhs edib. O qeyd edib ki, bugünədək 80 keçmiş koloniya müstəqillik qazansa da, hələ də dünyanın 17 ərazisində yaşayan xalqlar üçün bu proses məntiqi-hüquqi sonluğa çatmayıb.

"Azərbaycan fundamental insan hüquqları və bir sıra xalqların öz müqəddəratını təyinetmə hüququnun pozulmasına qarşı beynəlxalq hüquq çərçivəsində çox ciddi mübarizə aparır. Azərbaycanın təşəbbüsü və səyləri nəticəsində son dövrlərdə bir sıra mühüm beynəlxalq hüquqi sənədlər qəbul edilib. Məsələn, 2018-ci ilin aprel ayında Bakıda keçirilmiş Qoşulmama Hərəkatının aralıq dövr nazirlər konfransının yekun sənədinin "Öz müqəddəratını təyinetmə hüququ və dekolonizasiya" adlı bölməsində BMT-nin Nizamnaməsinə və Baş Assambleyanın 1966-cı il 14 dekabr tarixli qətnaməsinə uyğun olaraq Fransız Polineziyası xalqının öz müqəddəratını təyin etmək üçün ayrılmaz hüququ təsdiq edilmişdir. 2018-ci ildən etibarən BMT Baş Assambleyasının Fransız Polineziyası ilə bağlı qəbul etdiyi bütün qətnamələrdə Bakı konfransının yekun sənədinə istinad olunur", - deyə N.Səfərov diqqətə çatdırıb.

# “Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru”

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

**İyunun 15-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Şuşa şəhərində Milli Qurtuluş Günü və Şuşa Bəyannaməsinin imzalanmasının üçüncü ildönümünə həsr olunmuş ”Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru” mövzusunda beynəlxalq konfrans keçirilib.**

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və tədbirdə iştirak edən dost ölkələrin müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Prezident Administrasiyasının Siyasi









partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Çıxış edən Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qonaqları salamlayaraq Şuşa Bəyannaməsinin imzalanmasının əhəmiyyətinə diqqəti cəlb edib. O bildirib ki, Azərbaycan və Türkiyənin dövlət başçılarının imzaladığı Şuşa Bəyannaməsi ilə dövlətlərimiz arasında mövcud olan sarsılmaz, əbədi qardaşlıq münasibətləri bir daha bütün dünyaya bəyan edildi: ”Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfərlə erməni işğalından azad edilən Şuşada digər azad edilmiş ərazilərimizdə olduğu kimi, dövlətimizin başçısının tapşırığı ilə dərhal genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanılıb. 2020-ci ilin noyabrında Azərbaycanın qəhrəman oğullarının işğaldan azad etdiyi Şuşa xarabalığı xatırladırdı. Hər yer dağıdılmış tikililər, viran qoyulmuş yurdlardan ibarət idi. Bu füsunkar şəhərin 17 məscidindən 16-sı işğalçılar tərəfindən dağıdılmışdı. Azərbaycan Prezidentinin tapşırığı ilə məscidlərin dərhal bərpa edilməsi işinə başlanılıb. Nəticədə 4 il ərzində şəhərdə 4 məscid tam bərpa edilib, biri şəhərdə, digəri isə Daşaltı kəndində olmaqla 2 yeni məscidin inşasına başlanılıb. Ümumilikdə şəhərdə dağıdılmış 200-dək tarixi və mədəniyyət abidəsindən bu günədək 18-i bərpa



edilib. Mühəndis infrastrukturunun yenidən qurulduğu Şuşada aparılan bütün işlər şəhərin müfəssəl Baş planına uyğun olaraq həyata keçirilir. Artıq 960 nəfərlik yeni tam orta məktəb tikilərək istifadəyə verilib, rayon mərkəzi xəstəxanasının inşasının isə cari il ərzində yekunlaşdırılması planlaşdırılır”.

Xüsusi nümayəndə diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifə Ermənistanın apardığı işğalçı siyasət nəticəsində yurdlarından məcburi köçürülmüş vətəndaşlarımızın öz ata-baba yurdlarına qaytarılması və məşğulluğunun təmin edilməsidir: ”Böyük qürur hissi ilə bildiririk ki, artıq Şuşa öz sakinlərinə, buradan didərgin salınan soydaşlarımız isə öz doğma şəhərlərinə qovuşub. Mərhələli şəkildə həyata keçirilən geridönüşün ilk günü məhz Ulu Öndər Heydər Əliyevin doğum gününə - mayın 10-na təsadüf edib”.

Sonra Yeni Azərbaycan Partiyasının media qurumu olan Yeni TV-nin hazırladığı ”Biz birlikdə güclüyük!” adlı film nümayiş olunub.

Daha sonra beynəlxalq konfransın Milli Məclisin deputatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sabiq baş katibi Ramil Həsənin moderatorluğu ilə ”Türk Dövlətləri Təşkilatı: qlobal təhlükəsizliyə regional töhfə” mövzusunda I plenar sessiyası keçirilib.

Plenar sessiyada çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını İslam dünyasının mədəniyyət paytaxtı Şuşada salamlayıb və dəvəti qəbul edərək tədbirdə iştirak edən dost ölkələrin nümayəndələrinə təşəkkürünü bildirib.

YAP Sədrinin müavini qeyd edib ki, hazırda tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın müstəqil dövlət kimi inamlı inkişafı bilavasitə lider amili ilə əlaqədardır: ”Müasir Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasəti, əbədiyaşar ideyaları və zəngin dövlətçilik irsi ilə bağlıdır. Müdrik dövlət xadimi istər SSRİ dönəmində, istərsə də dövlət müstəqilliyinin bərpasından sonra respublikamıza uğurla rəhbərlik edərək xalqımız üçün taleyüklü məsələlərin həllinə nail olmuşdur. Ulu Öndər müstəqillik dövründə ölkəmizi tənəzzüldən qurtararaq inkişaf yoluna çıxarmışdır. Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması və xalqın öz Liderinin ətrafında sıx birləşməsi müstəqil dövlət quruculuğunu təmin etmiş, dövlətçilik tariximizin taleyüklü mərhələsi məhz bu dövrdə başlamışdır. Azərbaycan müstəqilliyin ilk illərində iqtisadi tənəzzül və siyasi xaos ilə üzləşmiş, qonşu Ermənistan mövcud geosiyasi şəraitdən və ölkəmizin böhran vəziyyətində olmasından istifadə edərək torpaqlarımızı işğal etmişdi. Belə bir ağır vəziyyətdə - 1993-cü ildə Azərbaycan xalqı Ulu Öndərə ölkəmizin xilası naminə respublikaya rəhbərlik etməsi üçün qətiyyətli çağırış etmişdi. Ümummilli Liderin xalqın çağırışına səs verərək 1993-cü il iyunun 9-da Bakıya qayıtması, iyunun 15-də isə Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi Azərbaycanın Qurtuluşunu təmin etdi”.

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, müdrik dövlət xadimi mürəkkəb tarixi mərhələdə liderlik missiyası yerinə yetirməklə milli həmrəyliyin təmin olunmasına, ölkənin inkişafına, dövlət maraqlarının qorunmasına və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər gördü, böyük tarixi nailiyyətlərə imza ataraq Azərbaycan üçün aydın perspektivləri müəyyən etdi: ”Beləliklə, Heydər Əliyev siyasəti xalqımıza ən dəyərli milli-siyasi sərvətimiz olan Azərbaycanın dövlət müstəqilliyini bəxş etdi və ölkəmizin yüksəlişi təmin olundu”.

Tahir Budaqov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin Türk dünyasında da xidmətləri bu gün böyük minnətdarlıqla xatırlanır və olduqca yüksək dəyərləndirilir: ”O, istər fərqli siyasi-ideoloji mühitin, o cümlədən sərt qadağaların mövcud olduğu SSRİ dönəmində, istərsə də Azərbaycanın mürəkkəb geosiyasi şəraitdə çoxsaylı çağırışlarla üzləşdiyi müstəqillik dövründə Türk dünyasında birlik və həmrəyliyin təmin olunmasına, türk dövlətləri ilə münasibətlərin inkişafına xüsusi diqqət yetirmişdir. Çoxəsrlik tarixi köklərə, milli-mənəvi dəyərlərə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri müasir tariximizdə Heydər Əliyevin təşəbbüsü əsasında Araz çayı üzərində inşa olunaraq əzəli Azərbaycan torpağı - qədim türk yurdu Naxçıvanla Türkiyəni birləşdirən ”Ümid” körpüsü ilə yeni məzmun almışdır. Ulu Öndər ”bir millət, iki dövlət” olaraq səciyyələndirdiyi Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmlənməsi istiqamətində prinsipial siyasət həyata keçirmiş, nəticə etibarilə, iki qardaş ölkənin dostluq və tərəfdaşlıq əlaqələri dünyada nümunəvi xarakter almışdır. Türkdilli ölkələrin səylərinin birləşdirilməsi ilə gələcəyə yönəlik birgə fəaliyyətin həyata keçirilməsini olduqca vacib amil kimi dəyərləndirən Ulu Öndər qeyd etmişdir: ”Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş Türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması Türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir”. Türk dövlətləri ilə münasibətlərin inkişafını Azərbaycanın xarici siyasət kursunun əsas istiqamətlərindən biri kimi müəyyənləşdirən Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə bu istiqamətdə mühüm addımlar atılmış və bugünkü uğurlarımızın təməli qoyulmuşdur”.



***Ardı səh. 5***

# "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru"

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib





Əvvəli səh. 4

YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Ümummilli Liderin siyasi varisi - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli maraqlara əsaslanan, müasir dövrün reallıqları və çağırışlarına cavab verən çoxşaxəli siyasətində türk dövlətləri ilə ortaq mənəvi dəyərlərə və müştərək strateji maraqlara əsaslanan münasibətlərin inkişafı xüsusi yer tutur: "Dövlət başçısı Türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinə, xüsusilə də Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə




böyük önəm verir. Prezident İlham Əliyevin ideya və təşəbbüsü əsasında 2009-cu il oktyabrın 3-də imzalanan Naxçıvan Sazişi ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması, mütəmadi olaraq mühüm qərarların qəbul olunduğu Zirvə görüşlərinin keçirilməsi və digər amillər çoxtərəfli əlaqələrin gücləndirilməsi üçün etibarlı zəmin yaratmış, bu təsisat uğurlu inkişaf yolunu keçərək beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik Türk Dövlətləri Təşkilatına çevrilmişdir".

YAP Sədrinin müavininin sözlərinə görə, möhtəşəm hərbi və diplomatik qələbələr qazanaraq ərazi bütövlüyü və suverenliyini təmin edən Azərbaycanın regionda formalaşdırdığı reallıqlar türk dövlətləri üçün də yeni imkanlar yaratmışdır: "Postmüharibə dövründə atılan addımlar bölgədə etibarlı təhlükəsizlik və çoxtərəfli əməkdaşlıq baxımından olduqca önəmlidir. Xüsusilə, 3 il öncə bu gün - 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması təkcə iki qardaş ölkə arasında əlaqələrin strateji tərəfdaşlıqdan müttəfiqlik zirvəsinə yüksəlməsi ilə əlamətdar deyil, eyni zamanda, regionda və bütövlükdə Türk dünyasında sabitlik, rifah və inkişaf üçün əlverişli zəmin yaratmışdır. Hazırda Cənubi Qafqazın lider dövləti olan, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində Avrasiyanın mühüm tranzit qovşağına çevrilən Azərbaycanın fəal təşəbbüsləri Türk dünyasında dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafına xidmət etməklə yanaşı, gələcəyə hesablanmış yeni perspektivlər də yaradır. Postmüharibə dövründə kommunikasiyaların bərpası ilə əlaqədar ölkəmizin nümayiş etdirdiyi geosiyasi iradə bu kontekstdə xüsusi qeyd edilməlidir. Şübhəsiz ki, qarşıdakı dövrdə Zəngəzur dəhlizinin reallaşdırılması və Orta dəhlizin inkişaf etdirilməsi türk dövlətlərinin yeni çoxtərəfli əməkdaşlıq platformasında bir araya gəlməsini, Türk dünyasında kommunikasiya və inteqrasiyanın güclənməsini də şərtləndirəcək. Bütün bunlar isə nəticədə yeni dünya nizamı şəraitində Avrasiyada, o cümlədən Türk dünyasında geosiyasi fəallığın artmasına təkan verəcək, uzunmüddətli hədəflərə nail olmağa real zəmin yaradacaqdır. Təqdirəlayiq haldır ki, Türk Dövlətləri Təşkilatında birləşən dost ölkələr siyasi, mədəni, humanitar sferada, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm, ekologiya sahələrində işbirliyi ilə yanaşı, təhlükəsizlik və müdafiə məsələlərini də xüsusi diqqət mərkəzində saxlayırlar. Fəal siyasi dialoq şəraitində iqtisadi əlaqələrin genişləndirilməsi isə başlıca strateji hədəflərdən biri kimi böyük əhəmiyyət daşıyır. Bu məqamda Türk Dövlətləri Təşkilatına üzv olan tərəfdaş dövlətlərin işğaldan azad edilmiş torpaqlarımızın - Qarabağda və Şərqi Zəngəzurun bərpası prosesində fəal iştirakını və ölkələrimiz arasında "yaşıl enerji" konsepsiyası əsasında perspektivli əməkdaşlığın önəmini ayrıca diqqətə çatdırmaq istəyirəm. Bu, sarsılmaz dostluq və qardaşlıq nümunəsi olmaqla yanaşı, ortaq təşəbbüslərin və birgə fəaliyyətin məhz sağlam və firavan gələcəyə istiqamətləndiyini təsdiqləyir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən




edilmişdir. Bu prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində sistemli fəaliyyət həyata keçirilir. Diqqətə çatdırmaq istəyirəm ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Bütün bu reallıqlar fonunda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük etimadın bariz nümunəsi və dövlətimizin müvafiq sahədə fəaliyyətinin yüksək qiymətləndirilməsidir".

"Hər birimizə məlumdur ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində olduqca gərgin proseslər və ciddi geostrateji dəyişikliklər baş verir. Qlobal kataklizmlər fonunda yeni geosiyasi reallıqların və müxtəlif çağırışların meydana çıxdığı bir dönəmdə dövlətçilik maraqlarının, o cümlədən tarixi ənənələrin və milli-mənəvi dəyərlərin qorunması hər zaman olduğundan daha aktual və vacibdir", - deyən YAP Sədrinin müavini əlavə edib ki, belə bir şəraitdə Türk dövlətlərinin milli maraqlara əsaslanan siyasət həyata keçirərək həmrəylik nümayiş etdirməsi və nəticəyönümlü əməkdaşlığı gücləndirməsi əsas prioritetlərdəndir.




Tahir Budaqov qeyd edib ki, ortaq milli-mənəvi dəyərlər və köklü tarixi ənənələr üzərində təşəkkül tapmış qardaşlıq əlaqələri fonunda böyük mənəvi-siyasi əhəmiyyəti olan "türk birliyi" ideyası müxtəlif ölkələrdə məskunlaşmış, tarixi ənənələrlə müasirliyin vəhdətini yaratmış türk millətinin ortaq dəyəridir: "Bu gün Türk Dövlətləri Təşkilatının məhz bu ideya əsasında məqsədyönlü fəaliyyəti yeni dünya nizamının yaranmaqda olduğu hazırkı şəraitdə ölkələrimiz arasında tərəfdaşlığın güclənməsinə, regional inteqrasiyanın sürətlənməsinə xidmət edir, dövlətlərimizin milli gücünün artmasını və müasir beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmlənməsini şərtləndirir. Milli maraqlara və müasir çağırışlara əsaslanan birgə fəaliyyətimiz və ortaq təşəbbüslərimiz ölkələrimizə inkişaf, regiona isə firavanlıq və sabitlik vəd edir, Türk dünyası üçün parlaq perspektivlər yaradır".

Tahir Budaqov vurğulayıb ki, bugünkü konfrans Türk dünyasında hakim siyasi partiyalar arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi məsələlərinin müzakirəsi baxımından da olduqca önəmlidir: "Konfransın növbəti plenar sessiyası məhz partiya diplomatiyasına həsr olunacaq və bu məsələlər ətrafında fikir mübadiləsi aparılacaqdır. Amma qısaca qeyd etmək istəyirəm ki, sıralarında 700 mindən artıq Azərbaycan vətəndaşını birləşdirən hakim Yeni Azərbaycan Partiyası Türk dünyasında partiyalararası əlaqələrin inkişafını daim diqqət mərkəzində saxlayır və qardaş xalqların, dost ölkələrin siyasi partiyaları ilə işbirliyinin genişləndirilməsi üçün məqsədyönlü addımlar atır. Bir qədər öncə izlədiyimiz filmdə bu barədə məlumat verildi. Əlavə etmək istərdim ki, iki gün öncə Bakı şəhərində Yeni Azərbaycan Partiyası ilə Qazaxıstanın "AMANAT" partiyası və Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası arasında imzalanmış memorandumlar da türk dövlətləri arasında partiyalararası əlaqələrin inkişafına dəyərli töhfədir. Onu da qeyd etməliyəm ki, partiyalarımız arasındakı sıx təmaslar təkcə ikitərəfli münasibətlərin inkişafını əhatə etmir, həm də Türk dünyasında çoxşaxəli əməkdaşlığa hədəflənmişdir".

"Nəzər yetirdiyimiz məqamlar əminliklə söyləməyə əsas verir ki, sarsılmaz qardaşlıq əlaqələrinə və səmərəli tərəfdaşlıq münasibətlərinə malik türk dövlətləri bundan sonra da həmrəylik nümayiş etdirərək yeni strateji hədəflərə doğru birlikdə inamla irəliləmək əzmində və qüdrətindədirlər. Ölkələrimizin birgə səyləri ilə Türk Dövlətləri Təşkilatının nüfuzlu regional güc mərkəzinə çevrilməsi artıq reallıqdır və əminəm ki, onun qlobal beynəlxalq münasibətlər sistemində rolu getdikcə artacaqdır. Biz hakim siyasi partiyalar olaraq qarşımızda duran bütün vəzifələri layiqincə yerinə yetirməklə bu prosesə öz töhfəmizi verməyə hazırıq. Ümid edirəm ki, Milli Qurtuluş Günü və Şuşa Bəyannaməsinin imzalanmasının üçüncü ildönümünə həsr olunmuş beynəlxalq konfransımız Türk dünyası üçün aktual məsələlərin müzakirəsi baxımından əhəmiyyətli olacaq və səmərəli ideya platforması kimi məhsuldar nəticələrlə yadda qalacaqdır. Fürsətdən istifadə edərək qarşıdan gələn müqəddəs Qurban bayramı münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, fəaliyyətinizdə yeni uğurlar, xalqlarımıza isə sülh və firavanlıq arzulayıram", - deyə YAP Sədrinin müavini vurğulayıb.

Çıxış edən Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvü Efkan Ala Azərbaycan-Türkiyə əlaqələrinin tarixində məhək daşı olan Şuşa Bəyannaməsinin imzalanmasının üçüncü ildönümü münasibətilə təbriklərini çatdırıb: "Doğrusunu deyim ki, bu il daha çox bəxtiyaram.

Ardı səh. 6

# "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru"

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib



Əvvəli səh. 5

Çünki artıq Şuşadan - Xarıbülbül diyarından avtobuslara minərək Xocalıya, Xankəndiyə gedəcəyik. Oralara əvvəllər olduğu kimi, daha kənardan baxmayacağıq. Bu tarixi müvəffəqiyyətə imza atan qardaş Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Bu Qələbə hamımıza böyük bir ərmağandır. Biz hər zaman Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü regionda sülhün açarı kimi qiymətləndirmişik. Uzun illər Azərbaycan torpaqlarının işğalına qarşı birlikdə mübarizə apardıq. Beynəlxalq aləmdə bu məsələ ilə




bağlı nümunəvi birlik nümayiş etdirdik. Türkiyə Cümhuriyyətinin Prezidenti başda olmaqla bütün vəzifəli şəxslər bu mübarizənin önündə getdilər. Əslində, bütün bunlar qardaş olaraq bizim vəzifəmiz idi. Biz qardaşlıq borcunu yerinə yetirdik. BMT-də, ATƏT-də, İƏT-də, eləcə də NATO-da hər zaman Azərbaycan torpaqlarının işğaldan azad edilməsini tələb etdik. Bütün bunlar, bir daha təkrar edirəm, bizim vəzifəmiz idi".

Qardaş ölkələr arasında münasibətlərin digər türk dövlətləri üçün nümunə olduğunu bildirən E.Ala deyib: "İllərlə Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi və digər məsələlərdə biz həmişə bir yerdə olmuşuq, birliyimiz bundan sonra da davam edəcək. Azərbaycan və Türkiyə arasında əlaqələri strateji müttəfiqlik səviyyəsinə yüksəldən Şuşa Bəyannaməsi həm də bizi ortaq hədəflərimizə aparan yol xəritəsidir".

E.Ala bildirib ki, TDT-yə üzv və müşahidəçi ölkələrin hakim partiya təmsilçilərinin iştirakı ilə Şuşada bir araya gəlməyin rəmzi mənası var: "Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib. Xankəndi, Xocalı və Azərbaycanın işğaldan azad edilmiş digər torpaqlarına rahat gedə bilirik. Birinci Qarabağ müharibəsində öz doğma torpaqlarının işğalı nəticəsində canını qurban verən qardaşlarımızın xatirəsini daim əziz tuturuq".

"Diplomatiya və siyasət bambuk ağacı kimidir. Bu ağacın toxumunu torpağa əkərsən, ona qulluq edərsən, amma birinci ilində heç tərpənməz. Nə qədər qulluq etsən, ikinci ildə də tərpənməz. Üçüncü, dördüncü illərdə də belə olar. Ancaq beşinci ilin sonunda cəmi 6 həftədə 27-30 metrə çatar. Diplomatiya da belədir. Bir il, iki il eyni yerdə dura bilərik. Ancaq son nəticə effektiv olur. 44 gün ərzində Qarabağı 30 illik işğaldan azad etmək mümkün oldu. Diplomatiya, siyasət və güc bir araya gəldikdə məhz bu cür tarixi Zəfər əldə etmək olur. Bəli, bundan təxminən 4 il əvvəl qəhrəman Azərbaycan oğulları Cənubi Qafqazda misilsiz bir Qələbə əldə edərək illərdən bəri donmuş arzuları yaşıllaşdırdılar", - deyə AK Parti Sədrinin birinci müavini söyləyib.

Efkan Ala daha sonra bildirib: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad etdi. Bu torpaqlar uğrunda canını fəda edən şəhidlərimizi bir daha rəhmətlə anır, "ruhları şad olsun" deyirik. Türkiyə xalqı "Bir millət, iki dövlət" fəlsəfəsinə sadiq qalaraq Qarabağ Zəfərinin sevincini böyük coşqu ilə yaşadı. Bəli, qədim Şuşa bütün İslam-Türk dünyasının bir parçası olan Vətən torpağıdır. Şuşa böyük sənətkarlar, şairlər yetirərək Azərbaycanın və Türk dünyasının mədəniyyət paytaxtı olmuşdur. Şuşa 2023-cü ildə Türk dünyasının, bu il isə İslam dünyasının mədəniyyət paytaxtı elan olunub. Bütün bunların fonunda bir daha demək lazımdır ki, Qarabağ Zəfəri sadəcə bir işğalın sonu deyil, həm də rifaha, təhlükəsizliyə və əməkdaşlığa açılan yeni bir qapıdır", -



deyə E.Ala vurğulayıb.

AK Parti Sədrinin birinci müavini deyib ki, Şuşa Bəyannaməsini Türkiyə-Azərbaycan qardaşlığının, dostluğunun ən gözəl nümunəsi kimi dəyərləndirmək olar: "Bütövlükdə, dərin və sağlam təməllər üzərində qurulan münasibətlərimiz Şuşa Bəyannaməsi ilə son dərəcə möhkəmləndirilib. Bu sənəd gücünü müstəsna əlaqələrimizdən, ortaq tariximizdən, dilimizdən, mədəniyyətimizdən, adət-ənənələrimizdən və bütün bunların əsasında dayanan könül bağlılığımızdan almaqdadır. Bu, təkcə iki qardaş ölkə arasında əməkdaşlığın dərinləşməsinə deyil, bütövlükdə regionda sülhə, təhlükəsizliyə xidmət edir. Şuşa Bəyannaməsi müttəfiqlik münasibətlərinin geostrateji əhəmiyyətini də artırır. Əməkdaşlığa dair bütün sahələri əhatə edən Bəyannamə sülhə yol açır və regionda inteqrasiya prosesini stimullaşdırır. Regional və qlobal miqyasda baş verən böyük dəyişikliklər fonunda Şuşa Bəyannaməsinin dəyəri bir daha özünü göstərir. Bu tarixi sənəd birliyimizi bundan sonra daha da irəliyə aparacaq. Dünya miqyasında bənzəri olmayan Türkiyə-Azərbaycan qardaşlığı əbədi yaşayacaq", - deyə AK Parti Sədrinin birinci müavini bildi-




rib.

Çıxış edən Qazaxıstanın "AMANAT" Partiyasının İcra katibi Daulet Kəribek ilk olaraq beynəlxalq konfransa dəvətə görə təşəkkür edib, bu platformanın Türk Dövlətləri Təşkilatının inkişafına və daha da möhkəmlənməsinə töhfə verəcəyinə inamını bildirib. Onun sözlərinə görə, tədbirin qardaş Azərbaycanın mədəniyyət beşiyi, 2024-cü ildə "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmiş Şuşa şəhərində təşkil edilməsinin xüsusi önəmi var: "Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev cari ilin mart ayında Azərbaycana dövlət səfəri zamanı Şuşada olub. Qarabağın yenidən dirçəldilməsi bizi sevindirir. Burada aparılan işləri, sürətli inkişafı öz gözlərimlə gördüm. Qazaxıstan Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qətiyyətli dəstəyini hər zaman ifadə edib. Fürsətdən istifadə edərək, ərazi bütövlüyünü beynəlxalq hüquq normalarına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq təmin etməsi münasibətilə qardaş Azərbaycan xalqını təbrik edirəm".

Daulet Kəribekin sözlərinə görə, dünyada



mürəkkəb proseslərin baş verdiyi müasir dövrdə beynəlxalq hüquq normalarına riayət edilməsi müstəsna əhəmiyyət kəsb edir: "Hazırda dünyada geosiyasi eskalasiya müşahidə olunur. Gərginlik bütün istiqamətlərdə - siyasi, iqtisadi, humanitar sahələrdə müxtəlif dəyişikliklərə səbəb olur və bu, beynəlxalq hüquq böhranını dərinləşdirir. Risk və təhdidlərin artması artıq günümüzün reallığıdır. Amma istənilən böhran bir gün bitir. Bunu tarix sübut edir".

Beynəlxalq hüququn aşınma mərhələsində olduğunu deyən D.Kəribek əlavə edib ki, hazırkı qlobal sistem sülhü və sabitliyi təmin etmək iqtidarında deyil: "Baş verənlərin fonunda, təbii ki, inamsızlıq artır. Birbaşa dövlətlərarası toqquşmalarla yanaşı, proksi və hibrid müharibə texnologiyalarının aktiv istifadəsi müşahidə olunur, həmçinin nüvə müharibəsi ritorikası vardır".

"Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının beynəlxalq müstəvidə rolu artır. Hazırkı çətin geosiyasi şəraitdə TDT beynəlxalq siyasəti rasional və praqmatik xətlər üzərində saxlayan qüvvələrdən biri olmaqda davam edir. Bu təşkilat beynəlxalq müstəvidə itkiləri minimuma endirmək yolunda bir körpü rolunu oynayır. TDT-nin dövlət başçılarının müxtəlif istiqamətlərdə inteqrasiyanı daim dərinləşdirmək istiqamətində məqsədyönlü addımlar atmaları olduqca vacibdir. Müasir beynəlxalq siyasətdə Türk dünyasının əhəmiyyəti və rolu artıb. Hazırkı şəraitdə qlobal təhlükəsizliyin, sabitliyin və davamlı inkişafın təmin edilməsində əsas pay "orta güclər"in üzərinə düşür. Prezident Kasım-Jomart Tokayevin Sinqapurda mühazirəsi və "Euronews"da məqaləsi bu mövzuya həsr olunub. Yeni "orta güclər"in rolundan danışan Kasım-Jomart Tokayev qlobal təhlükəsizlik həm mühüm imkanlar yaradan, həm də ciddi risklərə səbəb olan dəyişikliklərə diqqət çəkib. Qazaxıstan Prezidenti Sinqapura dövlət səfəri zamanı təqdim etdiyi mühazirədə Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin təşviqinə dair səyləri nümunə göstərib", -deyə "AMANAT" Partiyasının İcra katibi vurğulayıb.

Hazırda Qazaxıstanın TDT-nin sədri olduğunu deyən D.Kəribekin sözlərinə görə, builki gündəm "Türk zamanı" şüarı ilə yadda qalıb. O qeyd edib ki, Türk dünyası 8 prioriteti əsas hədəflər kimi müəyyənləşdirib: "Bu, ənənələr, birləşmə, islahatlar, bilik, güvən, investisiyalar, vasitəçilik və enerji məsələsidir. Qazaxıstan bütün bu prinsipləri daxili siyasətində təcəssüm etdirir. Çətin geosiyasi vəziyyətə baxmayaraq, Qazaxıstanda Kasım-Jomart Tokayevin rəhbərliyi ilə davamlı və sistemli şəkildə islahatlar aparılır".

"İyunun 13-də Bakıda "AMANAT" partiyası və Yeni Azərbaycan Partiyası arasında Memorandum imzalanıb. Bu, dostluq münasibətlərinin daha da möhkəmlənməsinə və çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə dəstək məqsədi daşıyır. Ümumiyyətlə, partiyalararası əməkdaşlıq qardaş türk dövlətlərinin birliyinin daha da möhkəmlənməsinə xidmət edir. Fürsətdən istifadə edərək, türk dövlətlərinin hakim partiyalarını ikitərəfli əməkdaşlığı gücləndirməyə çağırıram. Əminəm ki, bu konfrans əlaqələrimizi möhkəmləndirməyə, qlobal kataklizmlərə qarşı effektiv mübarizə aparmağa kömək edəcək yeni strateji məqsədlər üçün başlanğıc nöqtəsi olacaq", - deyə D.Kəribek vurğulayıb.

Çıxış edən Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri, Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatası sədrinin müavini Aktam Xaitov yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib, müqəddəs Qurban bayramı münasibətilə təbriklərini çatdırıb.

Ardı səh. 7

# "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru"

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

Əvvəli səh. 6

Özbəkistanın xarici siyasətinin mühüm prioritetlərindən birinin məhz dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlarla strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin formalaşdırılması olduğunu deyən A.Xaitov Azərbaycanı Özbəkistanın zamanın sınağından çıxmış etibarlı tərəfdaşı kimi dəyərləndirib. Ölkələrimizin ortaq dilə, adət-ənənələrə malik dost dövlətlər olduğunu vurğulayan A.Xaitov son illər əlaqələrimizin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini deyib. Onun sözlərinə görə, dövlət başçılarının siyasi iradəsi



Özbəkistan-Azərbaycan çoxşaxəli tərəfdaşlıq və dostluq münasibətlərinə yeni ruh verib. Dövlət başçılarının qarşılıqlı etimada əsaslanan münasibətləri Azərbaycanla Özbəkistan arasında səmərəli əməkdaşlığın genişlənməsinə töhfə verir".

"Biz görürük ki, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda xalqın rifahının daha da yaxşılaşdırılması, ölkənin siyasi, iqtisadi və hərbi qüdrətinin, habelə beynəlxalq nüfuzunun artırılması istiqamətində mühüm addımlar atılır. Biz qardaş və yaxın dost olaraq Azərbaycan xalqının bu nailiyyətlərinə ürəkdən sevinirik", - deyə A.Xaitov vurğulayıb.

O qeyd edib ki, konfransın keçirildiyi Şuşa şəhəri Qarabağın incisi, Qafqaz mədəniyyətinin məbədi adlandırılır: "Şəhər görkəmli elm və mədəniyyət xadimlərinin doğulduğu yerdir. Şuşa 2023-cü ildə Türk dünyasının, 2024-cü ildə isə İslam dünyasının mədəniy-




yət paytaxtı elan edilib. Ötən il Xivə ilə Şuşa qardaşlaşmış şəhərlərə çevrilib. Bu şəhər Azərbaycanın tarixi ədaləti bərpa etməsinin bariz nümunəsidir. Bu, Özbəkistan xalqının əziz dostu Heydər Əliyevin böyük arzusu idi. Bu arzu Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən reallaşdırıldı. Dövlətimizin başçısı dəfələrlə vurğulayıb ki, Özbəkistan Qarabağ torpağında mədəniyyət obyektlərinin bərpasına töhfə verməyə hazırdır. Belə ki, ötən il Füzulidə Şavkat Mirziyoyev İlham Əliyevlə birlikdə Özbəkistanın dəstəyi ilə tikilən Mirzə Uluqbek adına 1 nömrəli məktəbin açılış mərasimində iştirak edib. Məktəb səmimi dostluğun simvoluna çevrilib".

Azərbaycanla yeni və daha möhkəm əməkdaşlıq körpülərinin qurulduğunu diqqətə çatdıran A.Xaitov əlavə edib ki, dövlətlərarası münasibətlərdə mühüm istiqamətlərdən biri hakim partiyalar arasında əməkdaşlığın gücləndirilməsidir.

Vaxtilə Türk Şurasının tarixi-mədəni bağlar əsasında yaradıldığını deyən A.Xaitov vurğulayıb: "Son illər hamımız beynəlxalq münasibətlərdə güclü təlatümlərin şahidi olduq. Dəyərlər sistemində dərin transformasiya prosesi gedir. Təəssüf ki, belə genişmiqyaslı və son dərəcə ziddiyyətli proseslərin təsiri Mərkəzi Asiya regionundan da yan keçmir. Belə çətin vəziyyətdə ölkələrin, o cümlədən Özbəkistanın milli maraqlarına cavab verən düzgün yolu tapmaq, təbii ki, asan deyil. Bu şəraitdə biz dünyanın bütün ölkələri ilə qarşılıqlı faydalı əlaqələri inkişaf etdirməyə çalışırıq. Eyni zamanda, davam edən böhranın mənfi nəticələrinin aradan qaldırılmasına, ticarətin, investisiyaların, nəqliyyat əlaqələrinin bərpasına və yeni şəraitdə inkişafına, elektron ticarətin geniş tətbiqinə, onun potensialından daha dolğun istifadəyə xüsusi diqqət yetirilməlidir".

A.Xaitov vurğulayıb ki, Türk Dövlətləri Təşkilatı ümumi qlobal təhlükəsizliyə öz regional töhfəsini verməyə qadirdir. Onun sözlərinə görə, Özbəkistan TDT-nin bütün üzvləri ilə strateji tərəfdaşlıq əlaqələri qurub: "Yəni biz beynəlxalq münasibətlərdə davam edən indiki proseslərə təşkilatın inkişafında yeni mərhələnin başlanğıcı kimi baxırıq və birlikdə istənilən təhdidləri dəf etməyə, mövcud potensialdan tam istifadə etməyə hazır olmalıyıq. Eyni zamanda, TDT-nin bu gün formalaşan yeni dünya düzənində mühüm yer tutduğunu vurğulayırıq. Əsas məqsədimiz təşkilat daxilində qarşılıqlı hörmət və etimad prinsiplərini gücləndirmək, bütün ma-




neələri birlikdə aradan qaldırmaqdır. Ümumiyyətlə, Türk dünyası qarşısında çox mühüm vəzifələr dayanır. Bu, ilk növbədə, iqtisadi əlaqələrin, sənaye və investisiya layihələrinin həyata keçirilməsi sahəsində əməkdaşlığın gücləndirilməsinə aiddir. Gələcəkdə TDT ölkələrinin elektron ticarət platformalarının inkişafına yönəlmiş tədbirlər həyata keçirməsi vacibdir. Regionumuzun nəqliyyat və tranzit potensialının artırılması strateji əhəmiyyət kəsb edir. Mərkəzi Asiya vasitəsilə əsas dünya bazarlarına, həmçinin Azərbaycan və Türkiyədən Avropa ölkələrinə çıxışın təmin edilməsi böyük önəm daşıyır. Nəqliyyat dəhlizlərinin inkişafı və logistika infrastrukturunun yaradılması ümumi maraqlarımıza tam cavab verir. Özbəkistan ekologiya sahəsində də əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır. Bəşəriyyət iqlim dəyişikliyindən yaranan problemlərdən ciddi şəkildə təsirlənir. Bu vəziyyət hamımızdan təcili tədbirlər həyata keçirməyi tələb edir".

Milli Məclisin deputatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sabiq baş katibi Ramil Həsən isə bildirib ki, türk dövlətləri arasında əlaqələr davamlı olaraq inkişaf edir. Onun sözlərinə görə, türk xalqlarını ortaq mədəniyyət, adət-ənənələr, milli-mənəvi dəyərlər, tarixi köklər birləşdirir və bu amillər qarşılıqlı səmərəli fəaliyyət üçün təməldir.

Türk dövlətlərinin coğrafi-strateji baxımdan dünyanın əhəmiyyətli bölgəsində yerləşdiyini deyən R.Həsən qeyd edib ki, bu dövlətlərin regionda sabitliyin və sülhün qorunub saxlanılmasında rolu getdikcə artır: "Həqiqətən də, bu gün Türk dünyası beynəlxalq müstəvidə birlik nümunəsi kimi çıxış edir. TDT isə qardaş ölkələrimizi bir araya gətirən güc mənbəyi kimi dünyada özünü təsdiq etməkdədir. Bütün bunlar liderlərimizin atdıqları addımların parlaq təcəssümüdür. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, biz birlikdə güclüyük və bizim Türk dünyasından başqa ailəmiz yoxdur".

Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın moderatorluğu ilə "Ortaq dəyərlərlə müasirliyin vəhdəti: partiya diplomatiyası yeni dialoq platforması kimi" mövzusunda keçirilən II plenar



sessiyada çıxış edən YAP Sədrinin müavini, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov bildirib ki, qədim Türk dünyasının və bu dünyanın tərkib hissəsi olan ayrı-ayrı türk xalqlarının, türk dövlətlərinin öz mövcudluqlarını qoruyub saxlamasını və inkişafını şərtləndirən ən mühüm amillərdən biri, bəlkə də, birincisi bu günə qədər yaşatdıqları ortaq dəyərlər və türkçülük məfkurəsidir: "Dünyada xalqların, millətlərin hər hansı ideologiya ətrafında birləşməsi ilə bağlı müx-




təlif nümunələr var. Türk xalqlarını birləşdirən dəyərlər isə bütün digər nümunələrdən fərqlənir. Çünki biz eyni soykökə, eyni tarixə malikik, eyni dildə danışırıq. Ortaq məqsədlərə çevrilə bilməyən ortaq dəyərlər sadəcə olaraq bir ideologiya, məfkurə, düşüncə çərçivəsindən kənara çıxa bilməz. İnanıram ki, türk xalqlarının, türk dövlətlərinin artıq formalaşmış ortaq məqsədləri birliyimizin güclənməsinə xidmət edəcək".

Yeni Azərbaycan Partiyasının Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin hakim partiyaları ilə əlaqələrinin inkişafına toxunan Əli Əhmədov partiya diplomatiyasının əhəmiyyətinə diqqət çəkib. Onun sözlərinə görə, bugünkü tədbir də YAP-ın partiya diplomatiyasından səmərəli istifadəyə verdiyi önəmin bir nümunəsidir: "Hakim siyasi partiyaların öz xarici əlaqələrindən istifadə etməklə dövlətin və xalqın taleyüklü məsələlərinə verdiyi töhfələrin bariz nümunəsini YAP 44 günlük Vətən müharibəsi zamanı göstərib. Belə ki, həmin vaxt Azərbaycanın haqq səsini beynəlxalq aləmə çatdırmaq üçün YAP tərəfindən dünyanın çox sayda siyasi partiyalarına müraciətlər edilib və nəticədə ölkəmizi dəstəkləyən cavablar alınıb. Azərbaycanla ən böyük həmrəyliyi isə, təbii ki, türk dövlətləri göstərib. Heydər Əliyev siyasətinin və Prezident İlham Əliyevin qətiyyətli diplomatiyasının nəticəsi kimi Azərbaycan Vətən müharibəsindəki Zəfəri ilə öz ərazi bütövlüyünü tam təmin etdi. Bu Qələbənin təmin olunmasında türk dövlətlərinin ölkəmizə dəstəyi olduqca əhəmiyyətli və dəyərlidir".

2020-ci ilin təkcə Azərbaycan üçün deyil, bütövlükdə Türk dünyası üçün əlamətdar olduğunu bildirən YAP Sədrinin müavini xatırladıb ki, 30 il ərzində işğal altında olan Qarabağ torpağı Azərbaycanın müzəffər Ordusu tərəfindən azad edildi, ölkənin ərazi bütövlüyü bərpa olundu, tarixi haqsızlığa son qoyuldu: "Bu Qələbənin əldə olunması bir sıra ciddi səbəblərlə əlaqədardır. İlk növbədə, İkinci Qarabağ savaşında qazanılan Qələbənin kökündə dayanan başlıca amil Azərbaycan dövlətinin gücü və qüdrətidir. Digər səbəb isə Azərbaycan cəmiyyətinin nümayiş etdirdiyi birlikdir. Bu savaş dönəmində hamı bir yumruq kimi birləşdi. Bizim möhtəşəm Qələbəmizin digər mühüm amili isə Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusunun gücü, əsgərlərimizin qəhrəmanlığıdır".

Əli Əhmədov qələbənin əldə olunmasında ölkəmizə böyük mənəvi-siyasi dəstək göstərmiş qardaş Türkiyənin xüsusi rolunu da qeyd edib. O bildirib ki, müharibə başlayan ilk andan Türkiyə dövləti, Türkiyə vətəndaşları Azərbaycanın yanında olduqlarını qəti şəkildə bəyan etdilər: "Müharibənin davam etdiyi günlərdə biz bu dəstəyi hiss etdik. Dünyada elə bir iki dövlət tapmaq olmaz ki, onlar arasındakı əlaqələr Türkiyə və Azərbaycan arasında olan münasibətlər kimi səmimi və etibarlı olsun. Bu qardaşlıq əsrlər boyu çoxsaylı sınaqlardan çıxıb".

YAP Sədrinin müavini işğaldan azad edilən ərazilərimizin bərpası işində də Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Azərbaycanın yanında olduğunu xüsusi vurğulayıb.

O, partiya diplomatiyasının Türk dünyasında əməkdaşlıq imkanlarının genişlənməsində faydalı olacağına əminliyini bildirib.

Çıxış edən Ulusal Birlik Partiyasının sədri, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel qeyd edib ki, köklü tarixə əsaslanan və böyük gələcəyə doğru inamlı addımlar atan Türk Dövlətləri Təşkilatı 200 milyona yaxın əhali sayı, təqribən 4.5 milyon kvadrat kilometrə çatan ərazi və 2 trilyon dollara çatan iqtisadi potensialı ilə artıq güc mərkəzinə çevrilib.

O bildirib ki, tarixi ənənələrə, ortaq dəyərlərə malik TDT-nin beynəlxalq nüfuzu getdikcə artır: "Bu təşkilatın geosiyasi fonda əhəmiyyəti böyükdür".

Ü.Üstel qeyd edib ki, Şimali Kipr Türk Cümhuriyyətinin TDT-yə müşahidəçi qismində üzv seçilməsi qürurvericidir. O, buna dəstək verən bütün qardaş ölkələrə minnətdarlıq edib.

Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti əlaqələrindən bəhs edən Baş nazir ölkələrimizin əməkdaşlığı istiqamətində mühüm səylər göstərdiklərini, əlaqələrin intensivləşdiyini diqqətə çatdırıb.

*Ardı səh. 8*

# “Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru”

Əvvəli səh. 7

”İnanıram ki, çox yaxın gələcəkdə əlaqələrimiz daha da dərinləşəcək və möhkəmlənəcək. Ümidvarıq ki, Şimali Kipr Türk Cümhuriyyəti tezliklə TDT-yə tamhüquqlu üzv qəbul ediləcək”, - deyən Ünal Üstel ölkəsinə dəstəyə görə Türkiyə və Azərbaycana təşəkkür edib.

Ü.Üstel vurğulayıb ki, 2023-cü ildə Ulusal Birlik Partiyası, AK Parti və Yeni Azərbaycan Partiyası arasında tarixi bir əməkdaşlıq müqaviləsi imzalanıb: ”Bu müqavilənin imzalanmasından sonra partiyalar arasında dialoq da genişlənib”.

AK Parti Sədrinin Xarici əlaqələr üzrə müavini, TBMM-nin üzvü Zafer Sırakaya çıxışında qeyd edib ki, dünyada qarşıdurmaların və qeyri-sabitliyin getdikcə artdığı və qlobal rəqabətin sürətləndiyi bir dövrdə yaşayırıq: ”Belə çətin bir mərhələdə dünyanın iqtisadi güc mərkəzlərinin dəyişdiyini və coğrafiyamızın cəlbedici məkana çevrildiyini də müşahidə edirik. Belə bir mühitdə artıq Türk dünyası olaraq aramızdakı bağların gücləndirilməsinə hər zaman olduğundan daha çox ehtiyac duyuruq”.

Zafer Sırakaya qeyd edib ki, Türk dünyasında birliyi möhkəmləndirəcək sağlam addımlar atılması zəruridir. ”Türkcə danışan ölkələrin dövlət başçılarının zirvəsi” olaraq başladığımız prosesin sonunda bu gün tam təminatlı bir təşkilata sahibik. Türk Dövlətləri Təşkilatı bu gün beynəlxalq arenada diqqətlə izlənilən, üçüncü ölkələrin əməkdaşlıq etmək istədiyi bir qüvvəyə çevrilib. Burada liderlərimizin birlik və bərabərlik içində, güclü bir Türk dünyası vizyonuna sahib olmalarının təsiri çox böyükdür”.

AK Parti Sədrinin müavini deyib ki, Türkiyədə ötən ilin fevralında baş vermiş zəlzələdən sonra TDT-yə üzv olan qardaş ölkələrdən göstərilən dəstək Türkiyə xalqının yaddaşına silinməz şəkildə həkk olunub: ”Bu münasibətlə bir daha təşkilat üzvlərinə minnətdarlığımızı bildiririk. Bu ağır hadisədən sonra Azərbaycanın təklifi əsasında Türkiyə ilə həmrəylik nümayiş etdirmək məqsədilə Ankarada toplanan TDT-nin Fövqəladə Zirvə Toplantısında mühüm qərarların altına imza atdıq. Bu zirvə toplantısında Türk İnvestisiya Fondunun yaradılması ilə bağlı anlaşma imzalandı və TDT çərçivəsində təbii fəlakətlərə və fövqəladə hallara birlikdə müdaxilə etmək üçün Mülki Müdafiə Mexanizminin yaradılması qərara alındı. Türk dünyası olaraq, qlobal rəqabətin mərkəzində çiyin-çiyinə işləməyə davam edirik. Bunu açıq şəkildə ifadə etmək istəyirəm ki, bütünləşmiş bir Türk dünyası bölgəmizin sabitliyi üçün zəruridir”.

Z.Sırakaya daha sonra vurğulayıb: ”Orta Dəhliz kontekstində nəqliyyat sahəsində də əməkdaşlığımızı artırmaq istiqamətində böyük potensialımız mövcuddur. Atalarımız bizə ortaq bir tarix qoyub. Bu ortaq tarixdən bizi əsrlər boyu uzaq tutmağa çalışanlar oldu, amma artıq ”Əsr Türk əsri olacaq” deyərək qurduğumuz Türk Dövlətləri Təşkilatının ortaq gələcəyimizin təməl daşı olacağına inamımız və gü-




vənimiz tamdır”, - deyə TBMM-in üzvü vurğulayıb.

Plenar sessiyada çıxış edən Fides-Macar Vətəndaş İttifaqı Partiyasının üzvü, Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Attila Tilki Macarıstanda keçirilən son prezident seçkilərindən, Avropa İttifaqının və AŞPA-nın ikili standartlarından bəhs edib. Azərbaycanda qadınlara səsvermə hüququnun Avropa ölkələrindən öncə verildiyini bildirən Attila Tilki qeyd edib ki, indi həmin ölkələr demokratiyadan danışırlar: ”Bizim türklərlə qohumluğumuz olduğu üçün çox qürurluyuq. Çünki bilirik ki, biz birlikdəyik”.

Azərbaycanda olduqları üçün özlərini xoşbəxt hiss etdiklərini deyən Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri ilə bağlı ölkəmizə təbriklərini çatdırıb. O, ölkəsinin Azərbaycanla tərəfdaşlığa böyük önəm verdiyini vurğulayıb: ”Macarıstanın xarici işlər və xarici iqtisadi əlaqələr naziri Peter Siyarto Bakıda enerji konfransında görüşündə demişdi ki, Azərbaycan çox vacib ölkədir. Köhnə dost ən möhkəm dostdur”.

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib




Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım isə Qarabağın incisi, Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərini yenidən ziyarət etməkdən məmnun olduğunu deyib. O, bu diyarda Şuşa Bəyannaməsinə həsr olunmuş konfransların keçirilməsinin ənənə halını aldığını bildirib. O deyib ki, Yeni Azərbaycan Partiyasının bu yöndə apardığı işlər çox önəmlidir.

Azərbaycanın haqq yolunda olduğunu deyən TBMM-nin üzvü qeyd edib ki, tarixi ədalət uğrunda mübarizə məntiqi yekununa çatıb: ”44 günlük Vətən müharibəsindən sonra 23 saatlıq antiterror tədbirləri həyata keçirildi. Daha sonra Qazaxın 4 kəndi diplomatik yolla azad edildi. Bununla da Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu gün Azərbaycanın hər tərəfində üçrəngli dövlət bayrağı dalğalanır”.

Ş.Ayrım Azərbaycan Prezidenti İlham Əliyevin ”Bizim ailəmiz Türk dünyasıdır” fikrinin önəmini vurğulayaraq deyib ki, bu gün Türk dünyasının birliyi qaçılmazdır: ”Türk dünyası Türkiyə və Azərbaycanın dövlət başçıları Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevlə qürur duyur”.

Ş.Ayrım, həmçinin Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına mütləq qayıdacaqlarına inamını ifadə edib.

Sonra YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun moderatorluğu ilə ”Türk Dünyası - 2040”: gələcəyə konseptual baxış” mövzusunda III plenar sessiya keçirilib.

Türkiyə Respublikasının Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun İdarə Heyətinin sədri Aygün Attar çıxışında bildirib ki, Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi sadəcə iki dövlət arasında strateji müttəfiqlik sənədi deyil, bütün Türk dünyasında birlik ruhunu tərənnüm edir: ”Eyni zamanda onu da qeyd etmək istəyirəm ki, İstanbulda keçirilən 8-ci Zirvə görüşündə qəbul edilən ”Türk Dünyası - 2040” vizyon sənədi uzunmüddətli hədəfləri əks etdirir. Dünya miqyasında baş verən hadisələr strateji baxışa sahib olmaq zərurətini doğurub. ”Türk Dünyası - 2040” sənədində təsvir edilən coğrafiya bu təşkilata üzv dövlətlərin olduğu Avrasiya coğrafiyasıdır. Avrasiyada ehtiyac duyulan əsas amillərdən biri TDT çətiri altında sağlam işbirliyidir”.

A.Attarın fikrincə, 2009-cu ildə qəbul edilmiş Naxçıvan Bəyannaməsində yer alan müddəalar suverenlik, bərabərlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını özündə ehtiva edən beynəlxalq hüququn əsas prinsipləridir: ”Bu gerçəkliyin ”Türk Dünyası - 2040” sənədində də öz əksini tapması çox önəmlidir”.

Plenar sessiyada Qırğız Respublikasının Azərbaycandakı səfiri Kayrat Osmonaliyev Azərbaycanın tarixi torpağı olan Qarabağın dirçəliş simvoluna çevrilən Şuşada keçirilən




beynəlxalq konfransda iştirakından məmnunluğunu bildirib.

”Bu gün əminliklə deyə bilərik ki, Türk Dövlətləri Təşkilatı özünü təsdiqləyib və dünya siyasətində mühüm platformaya çevrilib. Təşkilatımızın institusional strukturu formalaşdırılıb. 2040-cı ilə qədər, demək olar ki, bütün qarşılıqlı fəaliyyət sahələrində türk dövlətlərinin əməkdaşlığının və inteqrasiyasının dərinləşdirilməsi nəzərdə tutulur”, - deyə Kayrat Osmonaliyev qeyd edib.

Ölkəsinin Türk dünyasında inteqrasiyanın tərəfdarı olduğunu diqqətə çatdıran diplomat bugünkü konfransın TDT-nin əməkdaşlıq perspektivləri baxımından əhəmiyyətli olduğunu vurğulayıb. ”Düşünürəm ki, tədbirin iyulda Şuşada keçiriləcək TDT-nin dövlət başçılarının qeyri-rəsmi sammiti ərəfəsində baş tutması olduqca əhəmiyyətlidir”, - deyə Kayrat Osmonaliyev diqqətə çatdırıb.

O, Qırğızıstan ilə Azərbaycan arasında əlaqələrin ikitərəfli və çoxşaxəli tərəfdaşlıq səviyyəsində olduğunu deyib.

Azərbaycan xalqını 15 İyun -Milli Qurtuluş Günü və Qurban bayramı münasibətilə təbrik edən diplomat bildirib: ”Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkəsinin dövlətçilik tarixində müstəsna xidmətləri vardır. Xalqın gücü müdrik rəhbərin başçılığı ilə onun birliyindədir. TDT-nin də gücü onu təsis edən dövlətlərin birliyindədir”.

Türk Ticarət və Sənaye Palataları Birliyinin baş katibi Adem Kula isə çıxışında bildirib ki, Türk Dövlətləri Təşkilatının üzvü olan və qurumda müşahidəçi qismində təmsil olunan ölkələr arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi, ticarət, investisiya əlaqələrinin dəstəklənməsi, nəqliyyat infrastrukturunun yaxşılaşdırılması qarşıda duran əsas hədəflərdəndir: ”Türk dünyasının 2040-cı ilə qədərki inkişaf strategiyası bir çox sahələri əhatə edir. Ən prioritet olanlardan biri isə, şübhəsiz ki, ortaq iqtisadiyyatın inkişaf etdirilməsidir. Odur ki, türk dövlətləri arasında maliyyə və investisiya cəlbediciliyinin artırılması, elektron ticarətin, eləcə də kiçik və orta sahibkarlığın sürətli inkişafına nail olunması xüsusilə diqqətdə saxlanılmalıdır”.

O qeyd edib ki, gələcəyə konseptual baxış qismində nəzərə alınmalı vacib məsələlərdən biri də türk dövlətlərinin iqtisadi inkişafının sürətləndirilməsidir: ”Ortaq ticarəti təmin edən mərkəzləşmiş qurumun yaradılması məqsədəuyğun olardı. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qarşılıqlı ticarət əlaqələri zamanı gömrük məsələləri də öz həllini tapmalıdır. Sərbəst ticarət bizim 2040-cı il hədəflərimizə daha tez çatmağı təmin edəcək strateji addımlardandır”.

Adem Kula türk coğrafiyasının çox böyük arealı əhatə etdiyini, eyni zamanda, bu məkanda yerin üstü kimi altının da həddindən artıq zəngin olduğunu bildirib: ”Türk dünyası planetimizin böyük ehtiyatlara - neft-qaz və digər təbii sərvətlərə malik bölgələrindəndir. Həmçinin Türk dünyası gələcəkdə dünyanın geosiyasi mənzərəsində mühüm enerji məntəqələrindən biri kimi nəzərdən keçirilir. Bu isə Türk Dövlətləri Təşkilatının təkcə regional deyil, eyni zamanda, beynəlxalq əhəmiyyətini də son dərəcə artırır, qurumun iqtisadi və siyasi inkişafını şərtləndirir”.

Çıxış edən Türk Mədəniyyəti və İrsi Fondunun layihə rəhbəri Nuri Aksu bildirib ki, hazırda türk xalqlarının ortaq mədəniyyətini qorumaq və inkişafını sürətləndirmək təmsil etdiyi qurumun əsas vəzifələri sırasındadır. O bildirib ki, yaradıldığı gündən bu təşkilat hər zaman öz fəaliyyətini türk xalqları arasında mədəni əlaqələrin genişləndirilməsi istiqamətində qurub.

İşğaldan azad edildikdən sonra Şuşaya ilk səfərini xatırladan Nuri Aksu şəhərdə qısa müddətdə görülən işlərin heyranedici olduğunu deyib: ”Şuşada ortaq mədəni irsimizə qarşı törədilmiş vandalizm aktları məni çox sarsıtmışdı. Hər ziyarət etdiyimizdə buna şahid oluruq. Ermənilərin bu təxribat əməllərinin dünya ictimaiyyətinə çatdırılması üçün Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən sistemli fəaliyyət həyata keçirilir”.

”Türk Dövlətləri Təşkilatının İstanbul Zirvəsində qəbul edilən ”Türk Dünyası - 2040” sənədi bizim yol xəritəmizdir. Biz yol xəritəsinə uyğun olaraq 2040-cı il hədəflərimizə doğru inamla addımlayırıq”,- deyə Nuri Aksu bildirib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov isə bildirib ki, bu gün Türk dünyası inkişaf edir və güclənir. Onun sözlərinə görə, hazırda dünyada baş verən mürəkkəb proseslər strateji təhlil və konseptual baxış tələb edir: ”Biz beynəlxalq təşkilatların bu gün hansı vəziyyətdə olduğunun, onların hansı qərarlar qəbul etdiyinin və hansı fəlakətlərlə üzüzə olduqlarının canlı şahidiyik. Bizim atdığımız hər bir addım məhz strateji təhlilə əsaslanır. Bunun da kökü - təməli var. Bu, Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin uzaqgörən siyasəti, türk dövlətləri rəhbərlərinin gələcəyə strateji baxışlarıdır. Vətən müharibəsində qalib gələn Azərbaycan illər boyu strateji siyasət apardı, konseptual yanaşmalar gündəmə gətirdi. Müharibə bitəndən bir müddət sonra isə Şuşa Bəyannaməsi imza-




landı. Bu Bəyannamə gələcəyə strateji baxışı ifadə edir”.

S.Seyidov qeyd edib ki, Şuşa Bəyannaməsi bütövlükdə Türk dünyasının önəmini artırır: ”Bu sənədin imzalanmasından bir neçə ay sonra - 2021-ci ilin noyabr ayında İstanbulda keçirilən Zirvə toplantısında mühüm sənəd qəbul olundu. Həmin sənəddə bu gün müzakirə etdiyimiz bütün mövzular əksini tapıb. Sənəddə xarici siyasət və təhlükəsizlik məsələləri, iqtisadi inkişaf, inteqrasiya və digər mühüm məsələlər öz əksini tapıb”.

Beynəlxalq konfrans Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekunlaşıb.

Beynəlxalq konfransın iştirakçıları Şuşanın tarixi məkanları, şəhərdə aparılan tikinti və bərpa-quruculuq işləri ilə tanış olublar.

# Tükənmiş və çirkin "qoca qitə"...

***Avropa bütövləşməyə can atır, desək yanılmış olarıq. Üzvlərinin sayı artdıqca daxildə yeni-yeni qruplar əmələ gəlir. NATO hərbi blokdur və bu qurumun daxilində də qütbləşmə var. NATO-nun təsisçiləri, birinci, ikinci, üçüncü, dördüncü və nəhayət beşinci qoşulanlar kimi təsnifləşfirmək də olar. Hətta kapitalist dünyasından gələnlərlə keçmiş sosialistləri bir çatı altında birləşdirmək də artıq müşkülə dönüb.***




Ukrayna prezidenti cümə günü Fransa Parlamentində çıxışı zamanı deyib ki, Avropanı artıq sülhsevər qitə adlandırmaq olmaz. Parlamentin aşağı palatasının iclas zalında Vladimir Zelenskini spiker Yael Bron-Pive qarşılayıb. Sizin bayrağınızın mavi rənglərinə bürünmüş Ukrayna xalqı müqavimət göstərir ki, bu da həm də vahid Avropanın rəngləridir. Aİ sizin tərəfinizdədir, çünki bizim demokratik dəyərlərimizin gələcəyi sizin torpağınızda təhlükə altındadır. Biz sizə dəstəyimizi heç vaxt dayandırmayacağıq!

Öz növbəsində, Vladimir Zelenski öz çıxışında bildirib ki, biz Avropanın artıq sülhsevər qitə olmadığı bir zamanda yaşayırıq, təəssüf ki, sabah başqa ölkələr də bu təcavüzün necə inkişaf etdiyini görürük. Müharibənin ədalətli sonunu yaxınlaşdıran formata çevrilə biləcək ilk sülh sammitini səbirsizliklə gözləyirik. Biz heç vaxt yalnız silah gücünə güvənməmişik... Və bu ciddi problemin öhdəsindən gəlmək üçün dünyanın həqiqətən də birliyə ehtiyacı var. Ukrayna prezidenti 20 dəqiqəlik çıxışında vurğulayıb ki, "Ukrayna bütün Avropanın təhlükəsizliyinin açarıdır, çünki Ukraynaya nəzarət olmasa, Rusiya adi bir milli dövlətə çevrilməli olacaq". Ukrayna dilində danışan Vladimir Zelenskinin çıxışı tez-tez fransalı deputatların alqışları ilə kəsilib. Çıxışın sonunda deputatlar Ukrayna prezidentini uzun sürən alqışlarla qarşıladılar.

### Sağlar gediş edir və udur...

İfrat sağlar bütün Avropada güclənir və Avropa seçkilərində siyasi tarazlığı pozmaq potensialına malikdir. Bu halda Aİ-də hansı nəticələri gözləməliyik? Populist ritorikanın Avropa seçkilərində çox uğurlu olacağı gözlənilir. Sorğular göstərir ki, ifrat sağçı partiyalar və mühafizəkarlar növbəti Avropa Parlamentində üçüncü qüvvə ola bilərlər.

İyunun 9-da keçiriləcək səsvermədə Almaniya üzv ölkələr arasında ən çox deputat seçəcək - 96. Bunlardan Almaniyanın ifrat sağçı Almaniya üçün Alternativ partiyası (Alternative für Deutschland, AfD) 20-ni qəbul etməyi planlaşdırır. Onlar uğur qazanacaqlarmı? Səsverməyə bir neçə gün qalmış AfD üzvləri ilə bağlı qalmaqallara baxmayaraq, rəy sorğularında güclü mövqe tutur. Bu yaxınlarda partiya aparıcı namizədi Maksimilian Krachın sözlərinə görə Avropa Parlamentində ifrat sağçı Kimlik və Demokratiya qrupundan çıxarılıb. İtaliya qəzetinə müsahibəsində o qeyd edib ki, SS nasistlərinin hamısı cinayətkar deyil...

Eyni zamanda, Krach AfD-nin əsas namizədi olaraq qalır. O, hansı Avropanı hədəfləyir? "Bizim AB üzvləri üçün daha çox səlahiyyətlərə ehtiyacımız var," o, verdiyi müsahibədə izah edib: "Bizə Brüsseldə daha az səriştə və daha çox rəqabət lazımdır, eyni zamanda, ticarət razılaşmalarına, gömrük və xarici siyasət direktivlərinə ümumi yanaşma bizə kömək edəcək". Şərqi Türingiya əyalətində AfD-nin Avropa seçkilərində əsas siyasi qüvvəyə çevrilmək üçün hər cür şansı var, baxmayaraq ki, partiya burada neonasistlərlə əlaqələrə görə nəzarət altına alınıb. Türingiyadakı AfD lideri və federal parlament seçkilərində əsas namizəd Björn Höcke çıxışı zamanı qəsdən qadağan olunmuş nasist şüarından istifadə etdiyi üçün cərimələnib. Beş il əvvəl başqa bir məhkəmə onun haqlı olaraq "faşist" adlandırıla biləcəyi barədə qərar çıxarmışdı.

Almaniyanın bu hissəsində ifrat sağçılara güclü simpatiya fenomenini tədqiq edən Türingiya Layihəsinin ekspertlərinin fikrincə, demokratiya bütün Avropada təzyiq altındadır. "Yerli səviyyədə, Türingiyada, AfD namizədi qalib gəlsə, o, öz imzası ilə ictimai yayımı ləğv edə biləcək", deyə Konstitusiya bloqunun və Türingiya layihəsinin redaktoru Friedrich Zillessen bildirib. O, məktəblərdə mədəniyyət siyasətinə təsir göstərə və prioritetləri fərqli təyin edə biləcək. Bütün bunlar texniki baxımdan qanuni variantlardır, lakin demokratiyamıza problemlər yaradır".

### Portuqaliya: İnsanlar "Çeqa!"

Köklü sağçı ənənələri olan bir ölkədən Monika Portuqaliyaya gedib və burada etiraz səsvermesi radikal sağçı qrup Chega-nı siyasi arenaya çıxarıb. Mart ayında keçirilən ümumi seçkilərdə parlamentdə 50 yer qazanaraq ölkənin üçüncü böyük siyasi qüvvəsinə çevrilib. Chega-nın qurucusu və lideri Andre Ventura deyir ki, onun partiyası ilə Portuqaliya siyasətini dəyişiklik küləkləri gözləyir. "Biz heç vaxt superdemokratik ölkə olmamışıq" deyir, "Çeqa demokratiya tarixində bizim ənənəvi ikipartiyali sistemimizi sarsıdan ilk ölkə olub". Ventura 2019-cu ildə Chega-nı təsis edib. Beş il ərzində partiya son ümumi seçkilərdə öz tərəfdarlarının sayını 1,3%-dən 18%-ə yüksəldib. Bu ilki qalib gələn sağ mərkəzçi koalisiyanın lideri ifrat sağçılarla ittifaqı tərk etdi, lakin Çeqanın Avropa Parlamentinin Kimlik və Demokratiya qrupundakı populist müttəfiqləri həvəslidirlər. "Aİ-ni dağıtmaq lazım deyil" deyə Ventura bildirib, "Ancaq biz Brüsselə immiqrasiya, vergilər, iqtisadiyyat baxımından nə etməli olduqlarını söyləyərək, onların kimliyini məhv etməyə icazə verə bilmərik".

Ultrasağların düşərgəsindəki parçalanmalara və çatlara baxmayaraq, görünür, bu gün onlar üçün ağ zolaq başlayıb. İntriqa belədir: radikallar Avropa seçkilərində siyasətə və qanunvericiliyə təsir etmək üçün kifayət qədər səs toplayacaqlarmı?

### Fransa Ukraynaya qoşun göndərməyəcək

Jordan Bardella Ukraynanın Rusiyadan müdafiə hüququnu dəstəklədiyini, lakin bu ölkəyə fransız qoşunlarının göndərilməsinin əleyhinə olduğunu bildirib. Fransanın ifrat sağçı Milli Birlik Hərəkatının lideri Jordan Bardella Fransa qoşunlarının Ukraynaya göndərilməsinin əleyhinə çıxış edib. "Əsgərlərin yerdə olması qırmızı xəttdir". Siyasətçi bu bəyanatı Paris yaxınlığındakı Eurosatory silah sərgisinə səfəri zamanı verib.

Bardella vurğulayıb ki, o, Ukraynanın Rusiyaya qarşı müdafiə ləvazimatları, silahlar və sursatlar verməklə özünü müdafiə etmək hüququnu dəstəkləyir. Amma eyni zamanda o qeyd edib ki, Kiyevi uzaqmənzilli raketlərlə təmin etməyəcək. Bardella həmçinin Fransa və İsrail arasında müdafiə sahəsində tərəfdaşlığı davam etdirmək istədiyini bildirib: "Mən respublika prezidentindən fərqli olaraq Ukraynaya qoşun və fransız əsgərlərinin göndərilməsinin əleyhinəyəm, çünki mən inanıram ki, ilk növbədə, fransızların əksəriyyəti Ukraynanın özünə qarşıdır (Ukrayna) Prezident (Vladimir) Zelenski Fransa qoşunlarını Ukraynaya göndərməyə çağırmadı, bu, dünya sülhü üçün dramatik nəticələrə səbəb ola bilər." Bu arada Fransa hökumətinin başçısı Qabriel Attal partiyasının parlamentdə mütləq çoxluğu əldə etmədiyi təqdirdə baş nazirlikdən imtina edəcəyini bildirən Bardellin bəyanatını şərh edib: "Son beş ayda Avropada müharibə, iqlim problemləri, geosiyasi təlatümlər və çağırışlar, süni intellektin tətbiqi ilə son dərəcə çətin bir zamanda baş nazir olmaq şərəfinə nail oldum. Amma bir an belə düşünmədim: "Bu çox mürəkkəbdir, burada nisbi çoxluq var, mən qarışmayacağam" hakimiyyətdə olan bir partiyadır".

İyunun 30-da Fransada növbədənkənar parlament seçkilərinin birinci turu keçiriləcək. Onlar Fransada keçirilən Avropa seçkilərində ifrat sağçılar qalib gəldikdən sonra prezident Emmanuel Makronun Milli Assambleyanı buraxmaq qərarı ilə əlaqədar toplanıb.

***V.VƏLİYEV***

# "Bu tədbir Türk dünyasında birliyin daha da möhkəmlənməsinə dəyərli töhfələr verəcək"



***Prezident İlham Əliyev "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktub göndərib. Prezidentin məktubunda deyilir: "Hörmətli konfrans iştirakçıları!***

Sizi "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda beynəlxalq konfransın keçirildiyi, Türk dünyasının mədəniyyət paytaxtı olmuş Şuşa şəhərində səmimi-qəlbdən salamlayır, konfransın işinə uğurlar arzulayıram.

Müasir dövrdə qlobal kataklizmlər beynəlxalq münasibətlər sisteminin geosiyasi reallıqlarından birinə çevrilmişdir. Xarici güc mərkəzlərinin təsiri və müdaxiləsi ilə dünyanın müxtəlif regionlarında çoxsaylı qarşıdurmaların - etnik və dini zəmində münaqişələrin, siyasi konfrontasiyaların baş verməsi, xaos və anarxiya mühitinin yaranması ayrı-ayrı dövlətlərə və bütövlükdə beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaratmaqdadır. Beynəlxalq hüquq normalarının kobudcasına pozulduğu və ikili standartlara əsaslanan selektiv yanaşmaların baş qaldırdığı belə bir şəraitdə milli maraqların qorunmasına hədəflənmiş və mövcud çağırışlara cavab verən siyasətin həyata keçirilməsi müstəqil dövlətlərin qarşısında duran başlıca vəzifələrdəndir.

Son zamanlarda yeni strateji hədəflərə doğru inamla irəliləyərək dünya siyasətində yüksələn güc mərkəzinə çevrilən, beynəlxalq nüfuzu və geosiyasi təsir imkanları artmaqda olan Türk Dövlətləri Təşkilatında birləşən ölkələr də analoji çağırışlarla üzləşirlər. Yeni ittifaq modeli kimi dünyanın diqqət mərkəzində olan bu təşkilatda təmsil olunan ölkələrin sıx həmrəylik şəraitində dostluq və qardaşlıq prinsiplərinə, qarşılıqlı anlaşmaya, bərabərhüquqlu tərəfdaşlığa və çoxşaxəli əməkdaşlığa əsaslanan münasibətləri həm milli və regional səviyyədə, həm də qlobal miqyasda sabitliyə, təhlükəsizliyə və inkişafa xidmət edən çox önəmli amildir.

Heç şübhəsiz, Türk Dövlətləri Təşkilatında bir araya gələn ölkələrin siyasi partiyalarının qarşılıqlı faydalı əməkdaşlığı da müştərək məqsədlərin həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

Əminəm ki, Azərbaycan xalqı üçün əlamətdar olan mühüm tarixdə - Milli Qurtuluş Günündə və Şuşa Bəyannaməsinin imzalanmasının növbəti ildönümündə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "İslam dünyasının mədəniyyət paytaxtı" Şuşa şəhərində keçirilən, bu səbəbdən xüsusi rəmzi mənaya və mənəvi-siyasi önəmə malik bu tədbir ölkələrimiz arasında çoxşaxəli münasibətlərin inkişafına, Türk dünyasında birliyin daha da möhkəmlənməsinə, yeni hədəflərin reallaşmasına dəyərli töhfələr verəcəkdir. Fürsətdən istifadə edərək, milli-mənəvi dəyərlərimizin və İslam mədəniyyətinin mühüm tərkib hissəsi olan müqəddəs Qurban bayramı münasibətilə hər birinizi ürəkdən təbrik edir, sizə möhkəm cansağlığı və fəaliyyətinizdə yeni nailiyyətlər diləyirəm."



# Mədəniyyətlər və dinlərarası və sivilizasiyaların təmas mərkəzi

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından 23 il ötür

Dinlərarası, millətlərarası münasibətlərdə dünya üçün örnək olan Azərbaycan tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan, milli-mənəvi dəyərlərinə sadiq dövlətdir. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı məhz ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib. Ölkəmizdə dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb.

Bu gün Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu Öndər Heydər Əliyev öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı, qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. Ümummilli Liderin Azərbaycanda milli azlıqlarla bağlı siyasəti beynəlxalq qurumlar tərəfindən də hər zaman müsbət qarşılanıb.

### HƏR KƏS AZƏRBAYCANIN BƏRABƏRHÜQUQLU VƏTƏNDAŞIDIR

Azərbaycan xalqı ölkə ictimaiyyətinin əsas hissəsi olan azərbaycanlılardan və ölkənin müxtəlif guşələrində yığcam halda yaşayan 30 sayda millət və etnik qruplardan ibarətdir. Sayı, dil və dinlərinin müxtəlifliyinə baxmayaraq, onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Hazırda, Azərbaycanda onlarla milli azlığın nümayəndəsi yaşayır: rus, ukrayn, tat, kürd, belorus, talış, yəhudi, türk, alman, ləzgi, tatar, avar, gürcü, saxur, udin və s.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti ölkə mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişaf edir. Bu, regionun inkişaf edən ölkəsi kimi Azərbaycan üçün ən təqdirəlayiq hal kimi qiymətləndirilir. Sovetlər Birliyi dağılandan sonra Azərbaycanda bir sıra mədəniyyət mərkəzləri yaradıldı. Milli azlıqlar tarixi, mədəni adət-ənənələrini qoruyub saxlamaq naminə öz mədəniyyət mərkəzlərini yaratdılar. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda onlarla milli-mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Beynəlxalq "İudaika" Cəmiyyəti, Məhsəti Türklərinin Vətən Cəmiyyətini göstərmək olar.

Azsaylı xalqların folklorunun, mədəniyyətinin geniş təbliği üçün bədii özfəaliyyət kollektivlərinin repertuarının milli zəmində inkişafı üçün tədbirlər həyata keçirilir. Bu qəbildən olan bir çox xalq kollektivləri, nəinki respublikamızda, eyni zamanda, bir çox xarici ölkələrdə də məşhurdurlar. Saatlının "Adıgün" - Axıska türkləri, Cəlilabadın "Ruçeyok" - rus, Qaxın "Şividkatsa" - gürcü, Zaqatalanın "Ceyranım" - saxur, Qubanın tat, yəhudi, Qusarın "Trillo", "Şahnabat", "Mel", "Qayıbulaq", "Şahdağ", "Dustaval" və "Melodiya" - ləzgi, Laçının kürd, Balakənin "Xoylo" - avar, Lənkəranın "Şənlik", "Bacılar" folklor mahnı və rəqs, Masallı rayonu "Halay", Lerik rayonunun "Laqutto", Astaranın "Sevinc" - talış, İsmayıllı rayonu İvanovka kənd mədəniyyət evinin - malakan, Bakı şəhərindəki "Gözəlim" tatar bədii özfəaliyyət kollektivləri bu qəbilədəndir.

### DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ

Bu gün ölkəmizdə dözümlülük ənənələrinin qorunub saxlanılmasına töhfələrini verən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından artıq 23 il ötür. Dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixində yaradılıb. Qeyd edək ki, müstəqil Azərbaycanın Banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət-din münasibətləri sisteminin əsas prinsipləri, bu sahəni tənzimləyən qanunvericilik bazası uğurla formalaşdırıldı. Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri olan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu. Dövlət Komitəsinin yaranması barədə fərmanla Komitənin qarşısına Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatına alınması, zərərli təriqətlərin fəaliyyətinə son qoyulması və digər vəzifələr qoyuldu. Beynəlxalq aləmdə, xüsusilə regionda və ölkədə gedən proseslər, eləcə də dini durumda baş verən hadisələr Ümummilli Liderin bu qərarının nə qədər müdrik addım olduğunu bir daha təsdiqlədi.

Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün sahələrə olduğu kimi, bu sahəyə də ayırdığı diqqət nəticəsində milli-mənəvi dəyərlərimizin yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində regionun lider dövlətinə çevrilib.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb. Dövlət siyasətini həyata keçirən Dövlət Komitəsi 23 illik fəaliyyətində dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirir.

### ÇOXMƏDƏNİYYƏTLİ HARMONİYA

Bəzi dünya dövlətlərində terrorizm, islama qarşı hücumlar artıb, islamafobiya güclənib. Avropa dövlətlərində milli mövcudluğu qoruyub saxlamaq cəhdlərinə qarşı aqressivlik, milli, dini və ayrı-seçkilik, mühacir və qaçqınların sıxışdırılması fonunda Azərbaycanda tolerantlıq, dözümlülük, multikulturalizm mühiti diqqətdən kənarda qalmır. Ölkəmizin mədəniyyətlərarası, dinlərarası və sivilizasiyaların təmas mərkəzinə çevrilib. Azərbaycan isə ekstremizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. "İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır" - deyən Azərbaycan Prezidenti bildirib ki, elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin: "Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk".

Həqiqətən də, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Azərbaycan öz dini müxtəlifliyi ilə fəxr edir. Çünki Azərbaycan dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olub və xristian icması əsrlər boyunca Azərbaycan tarixinin formalaşmasında iştirak edib. Təsadüfi deyil ki, xristian və müsəlman icmaları ilə yanaşı yaşayan təqribən 30 minlik yəhudi icması isə Azərbaycanda iki min ildən bəri yaşamaqdadır. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. 2003-cü ilin sentyabrından Azərbaycanda ilk yəhudi məktəbi fəaliyyət göstərir. 2010-cu ilin oktyabrında isə Bakının Xətai rayonunda yerləşən üçmərtəbəli təhsil kompleksi ən müasir tələblər səviyyəsində istifadəyə verilmişdir. 450 yerlik məktəbin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyəti əsaslarının tədris olunmasıdır. Azərbaycanda yaşayan yəhudilər hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq günahlarının bağışlanması üçün dualar edirlər.

### TOLERANTLIQ CƏMİYYƏTDƏ ƏMİN-AMANLIQ DEMƏKDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan İlahiyyat İnstitutu yaradılıb.

Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Multikulturalizm Mərkəzi yarandığı vaxtdan etibarən Prezidentin müəyyənləşdirdiyi Azərbaycanı, ölkəmizin multikultural dəyərlərini, tolerantlıq ənənələrini dünyada tanıtmaq hədəfini qurumun aparıcı istiqaməti elan edib. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi.

Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Müasir dövrümüzdə ölkəmiz bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlətdir. Bütün bunlara rəğmən qürur hissi ilə deyə bilərik ki, Azərbaycan bu sahədə də dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib.

***Zümrüd BAYRAMOVA***

# "Azərbaycan-Türkiyə münasibətləri region üçün sülh və sabitlik mənbəyidir"



"Milli Qurtuluş günündə və tarixi Qars müqaviləsinin 100 illiyində imzalanan Şuşa bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının simvoludur. Məhz bu tarixi sənəd Azərbaycanla Türkiyənin qardaşlığını bütün dünyaya bəyan etdi. Bu bəyannamə ilə iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsası qoyuldu. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, Şuşa Bəyannaməsi tarixi anlaşmadır. Bu anlaşma nəticəsində Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. Əslində, faktiki olaraq, biz uzun illər müttəfiqlər kimi fəaliyyət göstərirdik, ancaq Şuşa Bəyannaməsi bunu rəsmi sənədə çevirdi". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib. Millət vəkilinin sözlərinə görə, son 3 ildə bəyannamə çərçivəsində atılan addımların münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin etdiyini görürük: "Eyni zamanda müttəfiqlik münasibətlərinin geostrateji əhəmiyyəti də artmaqdadır. Ölkələrimiz arasındakı müttəfiqlik əlaqələri beynəlxalq müstəvidə birgə əməkdaşlıq, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu və digər strateji sahələri əhatə edir. Şuşa Bəyannaməsi hərbi əməkdaşlığın daha da dərinləşdirilməsinə xidmət edir. Bəyannamə əsasında hər iki ölkənin Təhlükəsizlik şuralarının ən vacib məsələlər üzrə müzakirələri birgə iclaslarda reallaşdırmaq nəzərdə tutulub. Tarixi Şuşa Bəyannaməsinin ən böyük üstünlüklərindən biri onun sülhə və inteqrasiyaya yol açmasıdır.

Bəyannamənin əhəmiyyətini şərtləndirən mühüm amillərdən biri də Azərbaycanın və Türkiyənin milli gücünün artması, dünyada söz və nüfuz sahibi kimi mövqeyinin daha da möhkəmlənməsidir.

Məlumdur ki, sənəddə əksini tapan mühüm məsələlərdən biri də xaricdə yaşayan türk və Azərbaycan icmaları arasında informasiya mübadiləsini artırmaq və diplomatik səyləri birləşdirməkdir. Beynəlxalq aləmdə daha səmərəli fəaliyyət göstərmək istiqamətində ortaq media platforması və diaspor sferasında birgə, qarşılıqlı əlaqələrin genişləndirilməsinə zərurət yaranıb".

K.Nurullayeva bildirib ki, sənəddə hər iki ölkənin diasporları arasında ikitərəfli əməkdaşlığın bütün parametrlər üzrə inkişaf etdirilməsi, birgə media platforması əsasında ölkələrin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya, həmçinin diplomatiya istiqamətində ikitərəfli əlaqələrin genişləndirilməsi, strateji məsələlər üzrə birgə qərarların qəbul edilməsi və icra edilməsi, qarşılıqlı maraq doğuran bütün məsələlər üzrə həmrəyliyin təmin edilməsi əksini tapıb: "Şuşa bəyannaməsi çərçivəsində atılan addımlar bir daha göstərir ki, Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri region üçün sülh və sabitlik mənbəyidir".

***Ləman Sərraf***

# Paytaxt sakinləri istirahətlərini harada və necə keçirməyi planlaşdırıblar?





**Yay sezonu da insanların ən çox istirahət etdiyi, tətilə çıxdığı sezondur. Artıq iyun ayının əvvəlindən yay sezonu başlayıb. Yayda həm məzuniyyətlər olur, həm uşaqlar məktəbdən tətilə buraxılırlar. Paytaxt sakinlərinin bir qismi istirahət planları qursalar da, bir qismi hələ məzuniyyətə çıxmayıb və harada istirahət edəcəyini bilmir. SİA olaraq paytaxt sakinləri arasında "Bu yay istirahətlərini harada və necə keçirməyi qərara alıblar?" mövzusunda sorğu keçirdik.**

**Şəhər sakini Mələkxanım Soltanova:** "Bu yay imtahanları keçdikdən sonra rayona gedəcəyəm. Rayondan da ailəmlə, yəqin ki, harasa gəzməyə gedərik. Hər yay rayona gedirəm, amma istirahətə getmirəm. Xarici ölkəyə getmək şansım olsa, Polşaya getmək, görmək istəyirəm. Uşaqlıqdan arzum olub. Başqa da istirahət üçün Türkiyəyə getmək istəyərdim. Şəhər içindəki hovuzları istifadə etmək isə seçimim deyil".

**Şəhər sakini Aynur Vəliyeva:** "Yayda xarici ölkəni yox, əvvəlcə Azərbaycanı gəzmək istəyirəm. Ən çox Tovuz, İsmayıllı rayonlarını gəzmək istəyirəm. Bu rayonlarda olmamışam. Hal-hazırda işlərim çoxdur. Həftəlik məzuniyyətə çıxacağam. Onda da Novxanıda bağımız var, oraya istirahətə gedəcəyik".

**Şəhər sakini Azad Xanəlizadə:** "Hələ ki, istirahəti planlaşdırıram. İstirahətə iyul ayında getməyi fikirləşirəm. Getmək istədiyim ölkələr də Balkan ölkələridir. Oraları görmək istəyirəm. Bu ölkələrə Albaniya, Serbiyanı aid etmək lazımdır. Alınsa, eyni anda Monteneqroya da getmək istəyirəm".

**Şəhər sakini Təranə Ağaverdiyeva:** Yay tətilində çox güman ki, Bakıda olacağam. Həm də işləyəcəm. Havalar isti olsa da, imtahanlara davam edirik. Sessiya imtahanları hələ bitməyib. İyunun 25-nə kimi Bakıdayıq. İstəyərdik ki, rayonlara gedək, bölgələrdə olaq, istirahət edək. Tələbə yoldaşlarımızla gəzmək daha maraqlı olardı".

**Şəhər sakini Samirə Səmədova:** "Yay tətilini, yəqin ki, dostlarımla rayona getməyi, yaxud da, əgər alınsa, Türkiyəyə getməyi planlaşdırıram. İtaliyada, Almaniyada olmaq, istirahət etmək istəyərdim. Bu yay Azərbaycanın rayonlarından Quba, Şəki, ya da ki, Lerik rayonlarına getməyə üstünlük verərdim".

**Şəhər sakini Mətanət Seyidova:** "Yay planımda rayona qayıtmağı düşünürəm. İstirahətimi rayonda edəcəyəm. Qəbələ rayonunda yaşayıram. Xarici ölkəyə getməli olsam, İsveçrəyə getmək istəyərdim. Çox sevirəm o ölkəni. Parisi də görmək istəyərdim, amma istirahət üçün yox, gəzmək üçün istəyirəm".

**Şəhər sakini Gülbikə Mənsimli:** "Tələbəyəm, imtahanlardan sonra rayona getməyi planlayıram. Bərdə rayonunda yaşayıram. Sərin rayon olmasa da, havası yaxşıdır. İstirahət üçün Oğuz, Qax, Şəkidə olmaq istəyirəm. Xarici ölkə olaraq da Fransaya üstünlük verərdim. Bu yay dənizə getməyi planlaşdırmıram".

**Şəhər sakini Ceyhun Məmmədov:** "Yay istirahətimi rayonda keçirməyi planlaşdırıram. Bu yay xarici ölkəyə getməyəcəyəm. İşlərim çoxdur. Hələ ki, hansı ayda istirahətə çıxacağımı da bilmirəm".

***Söylü Ağazadə***



MƏTANƏT

# Qaçqınlığa son!

**20 iyun-Ümumdünya Qaçqınlar günündə 30 ildən artıq məcburi qaçqın və köçkünlük həyatı yaşayan soydaşlarımızdan söhbət açmaya bilmədik. Artıq dövlətimiz qaçqınlığa son qoyub. Ölkəmizin minlərlə qaçqının hər biri öz ata-baba yurdunun azadlığını görüb, əksəriyyəti yurd-yuvasına qayıdıb. Böyük Qayıdış Proqramı davam edir. Yaxın gələcəklə onların hamısı doğma evlərinə qayıdacaq. Çünki daşı daş üstündə qalmayan Qarabağ və Şərqi Zəngəzurun əraziləri dövlətimiz tərəfindən yenidən qurulur.**

1990-cı illərdən başlayaraq ermənilərin Azərbaycan torpaqlarında olan tamah dişi minlərlə soydaşımızın xoş gününü, səadətini didib-parçaladı. Onları doğma ata-baba yurdundan didərgin saldı. 126 yaşayış məntəqəsi zorla boşaldıldı. XX əsrin ən faciəli hadisələrindən biri törədildi - 6000 azərbaycanlının yaşadığı Xocalı şəhəri bir gecədə darmadağın edildi. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olundu, Qarabağ, ətraf rayonlardan, həmçinin Ermənistanla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerindən məhrum olaraq respublikanın 62 şəhər və rayonunda məskunlaşdı. Hərbi təcavüz nəticəsində 20 min azərbaycanlı həlak oldu, 100 min nəfər yaralandı, 50 min insan müxtəlif dərəcəli xəsarət aldı. 1 milyon 200 mindən çox qaçqın, məcburi köçkünü oldu Vətənimizin...

2020-ci ilin 44 günlük İkinci Vətən müharibəsinin Zəfərlə bitməsi yurdundan məcburən qovulan və 30 ildən artıq köçkün, qaçqın həyatı yaşayan soydaşlarımızın üzünü güldürdü. Qəlbləri fərəhlə döyündü, qürur hissi yaşadılar. Çünki artıq bu statusu daşımayacaqdılar. Onlar müzəffər Ali Baş Komandanımızın və əzəmətli milli ordumuzun əyilməz zabit və əsgərlərinin hünər meydanında göstərdiyi qəhrəmanlıqla öz ata-baba torpaqlarının yenidən sahibi olmuşdular. 2023-cü ildə ilin sentyabr ayının 20-də birgünlük lokal xarakterli antiterror əməliyyatı ilə Xankəndi, Xocalı, Xocavənd kimi tarixi torpaqlarımız öz sahiblərinə qovuşdu. Mənfur ermənin Qarabağdan və Şərqi Zəngəzurdan birdəfəlik ayağı kəsildi.

20 iyun Ümumdünya Qaçqınlar günündə 30 ildən artıq qaçqınlıq həyatı yaşayan soydaşlarımızı yada saldıqca, onların 30 il yurdsuz, evsiz-eşiksiz yaşadıqlarını düşündükcə qəlibimiz yenidən düşmənə qarşı sonsuz nifrətlə dolur.

Qələbə qazansaq da, Zəfər bizim olsa da, lakin qaçqın-köçkünlərimizin 30 illik həyatını unutmaq olarmı? Bu torpaqlar uğrunda canından keçən şəhidlərimiz, sağlamlığından keçən qazilərimiz var. Onların hər birinin Qarabağımızın anası Azərbaycana qovuşmasında misilsiz qəhrəmanlığı olub.

Qaçqınlıq həyatı yaşayan soydaşlarımız tarixin bütün dövrlərində anılacaq. Çünki bizim qaçqınlıqda yaşlaşan gənclərimiz oldu. Qaçqınlıqda yurd həsrəti ilə dünyasını dəyişən ağbirçək, ağsaqqallarımız oldu. Evinin, həyətinin xəyalını qəlbinə gömən insanlar, uşaqlığı Qarabağda və Şərqi Zəngəzurda qalan, gəncliyi qaçqınlıqda keçən soydaşlarımız oldu.

Torpaqlarımız bu gün azaddır. Hər azad torpağımızda üçrəngli bayrağımız dalğalanır. Minlərlə insan artıq evindədir, qayıdıb, yaşayır. Digərləri isə qayıdacaq. Lakin onların qaçqın, köçkün kimi 30 il ərzində nələr yaşadığı unudulmayacaq. Və qaçqınlıq, köçkünlüyü yaşayan xalq kimi bütün dünyada buna məcbur qalan insanlara böyük yanğı ilə yanaşırıq. Çünki onlar da bizim taleyimizin eynisini yaşayırlar.

Qoy bütün dünya ən yaxın gələcəkdə bu günü Qaçqınsız Dünya Günü kimi tarixin səhifəsinə yazsın. Son qoyulsun qaçqınlığa. Bir parça torpağı heç kim sahibinə çox görməsin. Axı insanlar müqəddəs torpaqlarına yaxından bağlıdır. Onlar torpaqsız-yurdsuz özlərini heç yerdə xoşbəxt hiss etmirlər. Görəsən dünya bunu anlayırmı?

# Üçüncü dünya müharibəsi Fransadan başlaya bilər

Dünyanın siyasi mənzərəsi getdikcə daha geniş və əhatəli şəkildə dəyişməyə başlayır. Hər bir bölgədə yaşanan müharibələr, münaqişələr dünyanın mövcudluğunu sual altında qoyur. Xüsusilə də, nüvə arsenalına malik ölkələrin bir-birini atom bombasını işə salacaqları ilə hədələmələri bəşəriyyətin dağılacağı ilə bağlı irəli sürülən proqnozların reallaşmasına əsaslar yaradır. Bu arada Fransanın Afrikada müstəmləkə altında saxladığı xalqlara qarşı qanlı cinayətlər törətməsi, Rusiya - Ukrayna müharibəsində ikinciyə hərbi, siyasi dəstək göstərməklə yanaşı, NATO ordularını müharibə bölgəsinə göndərməyə çalışması üçüncü dünya müharibəsinin Fransanın bəşəri cinayətlərinə cavab olaraq başlayacağından xəbər verir. Hələlik isə Fransa hərbi texnika, kəşfiyyat və logistika dəstəyi ilə yanaşı formalaşdırdığı terrorçu dəstələri vasitəsi ilə müharibədə Rusiyaya qarşı iştirak edir. Avropanın bəzi KİV-ləri Fransanın ordu birləşmələrinin Ukrayna -Rusiya müharibəsində ciddi itkilər verməsi barədə yazılar dərc edir, videolar paylaşırlar. Bir qədər əvvəl Rusiya Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin bildirmişdir ki, Fransa Ukraynada döyüşmək üçün 2 min nəfərdən ibarət təlim keçmiş hərbçisini Ukraynaya göndərib. Təbii ki, Fransanın Ukraynanın yanında yer alması və verdiyi silahlarla Rusiyanın şəhərlərinin bombalanmasını rəsmi Moskva sakit şəkildə seyr edə bilməz. Rusiya tərəfindən cavab veriləcəyi və Fransanın cəzalandırılacağı şübhəsizdir. Bəzi siyasi şərhçilər bildirirlər ki, Rusiya nüvə silahından istifadə edəcəyi təqdirdə ilk hədəf Fransa olacaq. Rusiyanın nüvə təlimlərini Fransanın sərhədləri paralelində keçirilməsi də deyilənlərin əsaslı olduğunu təsdiqləyir. Rusiya Müdafiə Nazirliyindən verilən məlumatda bildirilir ki, nüvə təlimləri çərçivəsində "İsgəndər" raket komplekləri üçün xüsusi sursatın əldə edilməsi, onların məxfi yerdəyişməsinin təmin olunması, habelə buraxılışa hazırlanması üzrə tapşırıqlar icra ediləcək. Rusiya Hərbi Kosmik Qüvvələrinin şəxsi heyətinin qarşısında həmçinin, zərbə xarakterli aviasiya vasitələri, xüsusilə "Kinjal" raketlərinin döyüş sursatı ilə təchiz edilməsi üzrə bacarıqlarını təkmilləşdirmək, eləcə də əvvəlcədən təyin olunmuş istiqamətlərə çatmaq vəzifəsi qoyulub. Rusiya Müdafiə Nazirliyinin rəsmi məlumatında o da bildirilir ki, təlimlərin Rusiyanın suverenliyinə yönələn təhdidlər, habelə Qərbin təxribatları əleyhinədir.












### Nüvə müharibəsi dünyanın sonu demək olacaq

Birmənalı şəkildə qeyd etmək olar ki, dünyanın siyasi mənzərəsi ikinci dünya müharibəsindən sonra köklü şəkildə dəyişdi. Sovetlər birliyinin hegemonluğu fonunda yeni güc mərkəzlərinin formalaşması dünyada iki qütbün yaranmasına gətirib çıxartdı. ABŞ-ın Sovet İttifaqına qarşı daha tutarlı və dağıdıcı gücə malik silahların yaradılmasına başlaması və sonda nüvə silahına nail olması ABŞ-ın üstünlüklər əldə etməsinə gətirib çıxartdı. Hətta hərbi gücünü nümayiş etdirmək üçün ABŞ 1945-ci ilin avqustun 6-da səhər "Enola Gay" bombardmançısı Yaponiyanın Xirosima şəhərinə "Little Boy" uran atom bombasını atdı. Partlayışın gücü, müxtəlif hesablamalara görə, TNT ekvivalentində 13 ilə 18 kiloton arasında dəyişirdi. 9 avqust 1945-ci ildə isə "Fat Man" plutonium bombası pilot Çarlz Suini tərəfindən Naqasakiyə atıldı. Bunun gücü daha böyük idi və 15-22 kt təşkil edirdi. Bu onun daha inkişaf etmiş dizaynı ilə əlaqədar idi. Dəhşətli hücum zamanı insan itkilərinin sayı dörd yüz min nəfər olduğu bildirilir. Şüa xəstəliyindən ölənlərin sayı isə bu gün də davam etməkdədir. Atom silahından aldığı zərbədən sonra Yaponiya təslim olmağa məcbur oldu. Bu arada SSRİ-də öz atom bombasını yaratmaq üçün inkişaflar fəal şəkildə aparılırdı. ABŞ hesab edirdi ki, 1950-ci ildən tez yarada bilməyəcək. Lakin 29 avqust 1949-cu ildə Sovet nüvə fiziklərinin işi müvəffəqiyyətlə nəticələndi. Həmin gün partladılan RDS-1 bombası, Qərbdə Stalinin şərəfinə "Co-1" adlandırıldı. SSRİ-də 29 avqust 1949-cu ildə sınaq atom bombası ilə yanaşı, 1949-cu ilin sonuna qədər daha iki, 1950-ci ildə isə daha 9 bomba istehsal edildi. Lakin bütün bu bombalar eksperimental qurğular idi və o dövrdə SSRİ-də onların çatdırılma vasitələri yox idi. 1951-ci ilin yanvar-fevral aylarında daha dörd atom bombası istehsal edildi. Beləliklə, 1951-ci il martın 1-ə qədər SSRİ-də RDS-1 tipli 15 atom bombası mövcud oldu. 1951-ci ilin sonunda ilk üç seriyalı istehsal atom bombası da daxil olmaqla SSRİ-də ümumilikdə 29 ədəd RDS-1 atom bombası istehsal edildi. 24 sentyabr 1951-ci ildə SSRİ-də "502-M" (RDS-2) atom yükünün uğurlu sınağından sonra, 1951-ci ilin sonunda bu tip RDS-2 tipli atom bombalarının istehsalı tam mənimsənildi. 1 yanvar 1952-ci ildə SSRİ-də 35 atom bombası mövcud idi, bunlardan 29-u RDS-1, 6-sı isə RDS-2 idi. SSRİ bu bombaları ABŞ-a yalnız nəzəri olaraq çatdıra bilərdi. Bütün bunlar nüvə yarışı demək idi. Həm də nüvə arsenalına malik dövlətlər dünyanın təhdid etmək və öz siyasi iddialarını reallaşdırmaq imkanlarını qazandılar. Baxmayaraq ki, nüvə silahının yayılmaması haqqında 1 iyul 1968-ci ildə Moskva, Vaşinqton və Londonda imzalanmış müqavilə 1968-ci il iyunun 12-də BMT Baş Assambleyası tərəfindən təsdiq edilib.

Müqavilə digər ölkələr üçün də açıqdır. Müqavilə ratifikasiya sənədləri təhvil verildikdən sonra 5 mart 1970-ci ildə qüvvəyə minib. 24 noyabr 1969-cu ildə SSRİ tərəfindən ratifikasiya edilib. Hazırda 190 dövlət Müqavilənin iştirakçısıdır. Hindistan, Pakistan və İsrail Müqaviləyə əvvəldən qoşulmayıb, Şimali Koreya isə sonradan Müqavilədən çıxıb. Rusiya prezidenti Vladimir Putinin bu günlər Şimali Koreyaya rəsmi səfərdə olması və bir sıra müqavilələr imzalaması hər iki dövlətin nüvə silahından birgə istifadə etmələri ehtimalı yaradır. Yəni nüvə başlıqlarına sahib olan Şimali Koreya rəsmi Moskvanın razılığı və dəstəyi ilə istənilən vaxt qonşularına qarşı nüvə zərbəsi endirə bilər.

### Fransa dünya üçün təhlükə mənbəyinə çevrilir

Fransa dünyada insanlığa qarşı vəhşiliklər törədən, şəhər və kəndləri dağıdan dövlət kimi tanınır. Bu gün də öz siyasətini dəyişməyib və müstəmləkə altında saxladığı dövlətlərdə xalqlara qarşı soyqırımı siyasəti həyata keçirir. Uzun illərdi ki, Fransa hökuməti Yeni Kaledoniyanı müstəmləkəsi kimi əsarətində saxlamaq, habelə adanın yerli sakinləri olan Kanakları assimiliasiya etmək üçün kənardan minlərlə miqrantı qanunsuz yolla adaya yerləşdirir. Müstəqillik tərəfdarı olan kanakları azlığa çevirmək və miqrantların hesabına Fransa işğalını davam etdirmək üçün Makron hökuməti Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq bu ölkənin seçki qanunvericiliyini dəyişmək qərarına gəlib. Fransa hökuməti miqrantlara səs hüququ verməklə ölkənin əsarətdə saxlanılmasına dair referendumda üstünlük qazanmağa çalışır. Yeni Kaledoniyanın müstəqillik tərəfdarları uzun müddətdir ki, Fransa Hökuməti seçki kütləsinin sayının qanunsuz genişləndirilməsinə dair qanun layihəsinin dayandırılmasına çağırış edirdi. Bu qanun layihəsinin zorla qəbul olunmasının Yeni Kaledoniya pis nəticələnə biləcəyinə dair dəfələrlə xəbərdarlıq edirdilər. Onlar Fransa Hökumətini dialoqa çağırırdılar və Yeni Kaledoniyaya aid qərarların kaledoniyalıların iştirakı olmadan qəbul edilməsini işğalçı zehniyyatın məhsulu adlandırırdılar. Çoxsaylı çağırışlara məhəl qoymayan Fransa Hökuməti layihəni artıq Fransa Parlamentinin hər iki palatasında zorla qəbul etdirib və hazırda Yeni Kaledoniya xalqının boynundakı ipi tam bağlamaq üçün son addıma hazırlaşır.

Hazırda Yeni Kaledoniyada baş verən hadisələr Fransa Hökumətinin demokratik yola deyil, zor gücünə üstünlük verməsi və yerli xalqın hüquqlarına hörmət etməməsinin nəticəsidir. Yeni Kaledoniyada baş verən iğtişaşlara cavab olaraq, Fransa Hökuməti ordunu adaya daxil yeridib. Bunun nəticəsində artıq onlarla insan öldürülüb, yüzlərlə insan isə yaralanıb. Vəhşiliklər isə hələ də davam edir. Makron hakimiyyəti Fransa Hökuməti ordunun Yeni Kaledoniyada törətdiyi vəhşilikləri dünya ictimaiyyətin gizlətmək üçün TikTok sosial şəbəkəsinə çıxışı blok edib. Yeni Kaledoniya xalqı informasiya blokadası tətbiq etmək üçün bütün internetin kəsilə biləcəyindən, ordunun həmin an adada törədə biləcəyi vəhşiliklərdən narahatdır. Lakin Fransa Hökuməti öz əməllərini gizlədə bilməyib. Belə ki, BMT-nin Dekolonizasiya üzrə Xüsusi Komitəsinin ildə bir dəfə təşkil edilən regional tədbirində hazırda iştirak edən Yeni Kaledoniyanın BMT-dəki nümayəndəsi Fransa Hökuməti tərəfindən ölkəsində törədilən qırğınlar barədə BMT-nin üzv ölkələrini məlumatlandırıb. Qətlə yetirilənlər arasında gənclərin olduğunu qeyd edib. Fransa rəsmiləri, xüsusən də Daxili işlər və Dənizaşırı ərazilər naziri Jerard Darmanin rəhbərlik etdiyi Fransa jandarmalarının Yeni Kaledoniyada törətdiyi vəhşiliklərə haqq qazandıraraq, toqquşmaların səbəbi kimi xarici qüvvələri, o cümlədən Azərbaycanı göstərib. Adanın əsl sahibi olan kanakların fikirlərini dinləmək, onların istəklərinə hörmət etmək, ən əsası kolonial siyasətdən əl çəkmək əvəzinə başqa dövlətləri ittiham etmək riyakarlıqdır. "Azad fransız mediası" küçədə güllənənən kanakları göstərməkdən, yerli əhaliyə qarşı törədilən vəhşilikləri işıqlandırmaqdan imtina edir. Azərbaycan Fransanın daxili işlər naziri Jerar Darmaninin "France-2" telekanalına müsahibəsində Azərbaycana qarşı və Azərbaycanla Yeni Kaledoniyanın müstəqillik liderləri arasında iddia edilən münasibətlərə dair səsləndirdiyi fikirləri tamamilə rədd etdiyini bəyan edib. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Fransanın daxili işlər naziri Jerar Darmaninin "France-2" telekanalına müsahibəsində Azərbaycana qarşı səsləndirdiyi iddialara dair şərhində Fransa tərəfinin, ilk növbədə, Azərbaycana qarşı təhqiramiz ifadələrini bir daha qətiyyətlə pislədiyini və ermənilərin kütləvi şəkildə qətlə yetirilməsi kimi qəbuledilməz ittihamlarla Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasını dayandırmağı tələb edildiyini bildirib: "Fransa daxili işlər nazirinin öz ölkəsinin uzun illər həyata keçirdiyi müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi yerli xalqlara qarşı insanlıq əleyhinə cinayətlər törətməsini, milyonlarla günahsız insanın vəhşicəsinə qətlə yetirilməsi tarixini xatırlaması daha münasib olardı". Ayxan Hacızadə onu da bildirib ki, Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarı etirazları dəstəkləməkdə ittiham etmək əvəzinə, ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir: "Biz bir daha Fransanı ölkəmizə qarşı əsassız iddiaları dayandırmağa çağırırıq". Söz yox ki, yalan danışmaq da, həqiqəti təhrif etməkdə Makrondan heç də geri qalmayan Fransanın daxili işlər naziri Jerar Darman yanlış fikirləri ilə dünya ictimaiyyətini aldatmağa cəhd edir. Həm də nazir ölkəsinin müstəmləkə altında saxladığı dövlətlərdə törədilən cinayətləri ört-basır etməyə çalışır.

Məlum məsələdir ki, Yeni Kaledoniyada baş verən etirazların kökü ötən əsrin 70-ci illərinə gedib çıxır. O dövrdən konaklar Fransanın vəhşi müstəmləkə siyasətinə qarşı mübarizə aparır. Bu mübarizədə minlərlə vətəndaşını itirib, lakin azadlıq mübarizəsindən geri çəkilməyib. Bunu bu gün Azərbaycanın üzərinə yıxmaq karlığın və korluğun nəticəsidir. Uzun illərdir Fransa bu ərazidə demoqrafik vəziyyəti dəyişməyə çalışır, kanarların sayının azalması üçün orada kolonialistlərin sayı artsın, konakları kənara sıxışdırmaq siyasəti yürüdülür və bu gün baş verənlər məhz bu siyasətə qarşı mübarizədir. Sistematik problemlərə cavab vermək əvəzinə Fransa Azərbaycanı ittiham edir. Çox vaxt müstəqil media fəaliyyətindən danışan Fransa KİV-ləri də Makronun müstəmləkə altında saxladığı dövlətlərdə törətdiyi cinayətlərə haqq qazandırırlar. Bu isə onu bir daha təsdiq edir ki, Fransa hakim zümrə nəinki ölkəsini, ümumilikdə dünyamızı təhlükəyə sürükləyir.

**İLHAM ƏLİYEV**

I YAZI

# Toy adətlərimiz:

## yaşatdıqlarımız, unutduqlarımız...



***Toy əsrlərdən bəri xalqımızın böyük dəyər verdiyi, təntənəli şəkildə qeyd etdiyi mərasim olub. Bunun müəyyən səbəbləri var. O səbəblərdən birincisi xalqımızın möhtəşəm ailə dəyərlərinin olmasıdır. Bu dəyərlər əsrlərin süzgəcindən süzülərək formalaşıb. Formalaşdıqca da müqəddəsləşib. Biz ailəni hər zaman müqəddəs hesab etmişik. Ailənin qurulması həyatımızın unudulmaz anı olub. Valideynlər hər zaman övlad toyu görməyi arzulayıb, bu toyu taleyin ən gözəl bəxşişi hesab ediblər.***

Nikaha daxil olmağı, ailə qurmağı xalqımız vacib bir əməl kimi qəbul edib. Və bu, bütün ailələrdə təlqin olunub. O dərəcəyə çatdırılıb ki, mərhələli şəkildə həyata keçirilən, vaxtı çatanda vacib sayılan məsələlərdən biri olub. Xalqın folklorunda, yazılı və şifahi ədəbiyyatında ailə dəyərlərimizi özündə əks etdirən çoxsaylı məqamlar vardır. Bu dəyərlər isə toydan başlayır. Belə isə toylarımız



barədə danışaq, görək nələri unutmuşuq, nələri yaşadırıq...

### Elçilik

Bugündən dünənə baxarkən toy adətlərinin bir çoxunun ixtisara salındığını, digərlərinin isə formasının dəyişdirildiyinin şahidi ola bilərik. Bunlar barədə söhbət edəcəyik. Hələlik toyaqədərki mərhələnin birincisindən danışaq. O mərhələ ki, hələ də yaşadılır. Bu, elçilikdir. Deməli, oğlan və qız bir-birini se-



vir, vaxtı çatanda oğlan bu barədə anası ilə söhbət edir. Ana da bu barədə ataya danışır. Eyni zamanda qız da öz anasına ürəyini açır. Filankəslə ailə qurmaq istədiyini bildirir. Hər iki ailə araşdırmalara başlayır. Araşdırma deyəndə ki, bir soraqlaşırlar ki, görsünlər həmin ailə necə ailədir, onlarla bunların söz-söhbəti tutar, ya yox. Və yaxud da digər məsələlər var ki, onları öyrənəndən sonra toy baş tuta da bilir, tutmaya da.

Məsələn, soraqlaşma zamanı elə məsələlər ortaya çıxa bilir ki, qız anası qızına "biz onlarla qohum ola bilmərik, çəkil otur yerində",- deyir. Elə məsələlər olur ki, oğlan anası oğluna " biz o qapıya gedə bilmərik, ay bala, bu söhbəti bağla", -deyir. Yüzlərlə bu cür mənzərənin şahidi olmuşuq. Lakin bundan sonra qohumluq yarana da bilir, yaranmaya da. Bu da gənclərin israrına bağlı olur. Və burada böyük nəsihəti dinləmək məqamını xüsusi olaraq vurğulamaq lazımdır, ona görə ki, sonrakı peşmançılığın da dəfələrlə şahidi olmuşuq.

Ailələrin razılığı olmayanda bəzən qız evi tərk edir və sevdiyi oğlanla gedir. Buna qızqaçırma deyirlər. Onlardan nikaha daxil olanlar da, olmayanlar da olur ki, olmayanlar gələcəkdə problemlərlə üz-üzə qalırlar. Belə ailələrdən uğurlusu da, uğursuzu da olur.

Qayıdaq söhbətimizə. Deməli, soraqlaşma müvəffəqiyyətlə bitəndən sonra ana yaxın qadın qohumları necə deyərlər, başına yığır və qızgilə tanışlığa gedir. Bu, həm də kiçik elçilik hesab olunur. Bu mərasimdə qız tərəfdən də yaxın qadın qohumlar iştirak edir. Söhbət əsnasında tərəflər bir-birilərini tanıyır, yaxınlaşırlar. Tanışlıqdan sonra bö-



yük elçiliyin vaxtı təyin olunur.

Bu isə toyaqədərki ikinci mərhələ hesab olunur. Böyük elçiliyə kişilər qadınlarla birlikdə gedirlər. Burada əsas məqam həm kişi, həm də qadınlar arasında ağsaqqal və ağbirçəklərin mütləq olmasıdır. Yəni adətlərimizə görə xeyir işin təməlini ağsaqqal və ağbirçəklər qoymalı, xeyir-duanı onlar verməlidir. Beləliklə, 8-10, bəzənsə bundan bir qədər də çox sayda adam yığışır, qız evinə elçiliyə gedir. Bu dəfə də ailələr bir-biri ilə tanış olur, söhbətləşir. Daha sonra isə ağsaqqal söhbəti açır, qızı el qaydasına görə ata-anasından istəyir.

Razılıq olanda oğlan evi şirin çay istəyir. Süfrəyə şirin çay gətirilir. Nəlbəkiyə oğlan evi tərəfindən şirinlik olaraq pul qoyulur.

### Nişan

Nişandan əvvəl bəzi regionlarda "bəlgə" adı verilən mərasim də keçirilir. Yəni elçilik zamanı oğlanın anası qıza yaylıq və üzük verir. Buna "bəlgə" deyirlər. "Bəlgə", yəni "nişan etmək", "adlandırmaq" kimi anlama gəlir. Əvvəllər "bəlgə"dən sonra toy yaxın vaxtda keçiriləcəkdirsə, nişan qoyulmurdu, yox, əgər bir il, il yarım sonra olacaqdırsa, nişan qoyulurdu.

Hazırda isə bu mərasim ailələrin imkanına görə öz aralarında razılaşma şəklində həyata keçirilir. Ailələr var ki," bəlgə" və yaxud evdə kiçik nişanqoyma ilə kifayətlənir. Ailələr də var ki, geniş nişan keçirir, hansı ki, iki ay sonra toy olacaq.

Nişanı qız tərəfi ev şəraitində və yaxud şadlıq evində keçirir. Nişanqoyma mərasiminə oğlan evi xonçalarla gəlir. Bu xonçalarda gəlin üçün zinyət, geyim, bəzək əşyaları, şəkərbura, paxlava, badambura olmaqla, müxtəlif şirniyyatlar olur. Şirniyyatlardan mərasimdəki bütün qonaqlara paylanır. Mərasim iştirakçıları həmin şirniyyatları evə-övladlarına aparır və inanca görə bu nişan şirniyyatlarından dadmaq onlara da belə xoş günün qismət olması anlamına gəlir.

Nişanqoyma toyaqədərki ən maraqlı, şənlikli mərasimlərdən biridir. Nişanlanmaq iki gəncin həyatına yenilik gətirir, onları çıxdıqları yeni bir yolda birləşdirir. Nişan üzüyü iki gəncin bir-birinə məhəbbətinin tərənnümü kimi rəmzi məna daşıyır. Həmin gündən qız oğlanın, oğlan qızın üzüyünü barmağında gəzdirməklə, artıq yeni bir həyata qədəm qoyduqlarını ətrafdakı insanlara bəyan edirlər.

### Nikah

Ta qədimdən nikah günü evlərimizdə təntənəli şəkildə qeyd olunub. Bunun üçün analarımız süfrə açıb, üzərinə min bir adda, ləzzətdə şirniyyatlar düzüb, yeməklər hazırlayıb. Bütün yaxınların, rəfiqə və dostların iştirak etdiyi nikah mərasimi süfrə başında, deyib-gülməklə, subaylara da bu günün nəsib olması diləyi ilə xatirələrə köçüb.




Nikahlanmağımızı təsdiq edən sənəd evimizin ən yuxarı hissəsində, etibarlı bir yerdə saxlanılıb. Hər zaman qorunub. Bütün bunlar isə yenə də ailəyə verdiyimiz dəyərdən, iki gəncin rəsmi şəkildə bir araya gəlməsinə müqəddəs yanaşmağımızdan qaynaqlanıb. Hər il nikah gününün qeyd olunması, bu münasibətlə evlilərin bir-birinə hədiyyələr bağışlaması bu müqəddəsliyin göstəricisidirsə, ailələrimizdə Gümüş, Qızıl, Brilyant toyların qeyd edilməsi isə bu xalqın nikaha verdiyi dəyərin bariz nümunəsidir.

Lakin təəssüf ki, bu gün rəsmi nikaha girmədən qurulan çoxsaylı ailələr də var. Onlar yalnız dini qaydada, yəni kəbin kəsdirməklə evlənir. Lakin bunu anlamaq bir o qədər çətin deyil ki, rəsmi nikah olmadan birlikdə yaşamaq doğru olmayan hal- günahdır. Bu, həm də sonrakı illərdə ailələrin çoxsaylı problemlərlə üzləşməsi ilə nəticələnir. Odur ki, əziz valideynlər, rəsmi nikah olmadan qızlarınızı evdən çıxarmayın.

Nikah ailənin təməl daşıdır. Bu təməli sadəcə kəbinlə əvəzləşdirmək bünövrənin düzgün qoyulmaması deməkdir. Düşünürəm ki, kəbin ailəyə ailə statusu verə bilməz. Ən əsasını söyləyək, rəsmi nikahı olmayan ailələr uşaq dünyaya gələn zaman ona doğum haqqında şəhadətnamə alarkən çətinliklə üzləşir. Və heç istəmədiyimiz hal, boşanma vəziyyəti yarananda rəsmi nikahın olmaması hər iki tərəf üçün problem yaradır.

### Xınayaxdı idi, oldu ciyər axşamı

Bu gün "ciyər axşamı" deyilən mərasim vaxtilə xınayaxdı idi. Xınayaxdı toydan bir gün əvvəl keçirilərdi. İndiki kimi yeyib-içmək, israfçılıq yox idi xınayaxdılarda. Sadəcə şirniyyatlarla bəzədilmiş çay süfrəsi açılardı.

Axşam oğlan evində mağarda toy çalınanda bir dəstə gənc toydan çıxar, uzaq məsafəyə maşınla, yaxın məsafəyə piyada qız evinə xınayaxdıya gedərdilər. Oğlan evində isladılmış xına xonçada qız evinə aparılar, gəlinə xına yaxıldıqdan sonra oğlana göndərilərdi. Oğlan da çeçələ barmağını xınaya batırmaqla bu müqəddəs ittifaqa da-




xil olmağının sevincini yaşayardı.

Qız evinədək yolboyu haxıştalar deyilər, qız evinə çatanda isə bu haxıştalar qız və oğlan adamları arasında deyişmə formasına keçərdi. Hamı rəqs edər, sonra gəlinə xına qoyulardı. Xınayaxdı mərasimini bir qədər yaşlı qadın həyata keçirərdi. Xına qoyulduqca gəlinə xeyir-dua verər, xoşbəxtlik, səadət arzulayardı. Sonra isə süfrə başında şirniyyatlarla çay içilər, gənclər yenə də toya qayıdardılar.

Bu gözəl adətimiz indi unudulub, yerini ciyər axşamı alıb. Həm qız, həm də oğlan toyundan bir gün əvvəl ev yiyəsi qazan-qazan yemək hazırlayır. Bu yemələr xaş və ciyər qovurması olur. Sabah toyda iştirak edənlərin əksəriyyəti bu ciyər axşamında olur. Masa üzərinə yeməklə bərabər, spirtli içkilər düşülür. Yeyib içmək bitəndən sonra isə gəlinə əvvəlki xınayaxdılardan tamamilə fərqli xına qoyulur. Bu mərasim o qədər soyuq şəkildə keçirilir ki, hər dəfə ötən illəri xatırlamalı, "heyif o illərdən",- deməli olursan. Ciyər axşamı oğlan evindədirsə, bu, sadəcə yemək-içmək məclisi olur.

Maraqlıdır ki, sabahısı toy edən ev sahibi nə üçün bu qədər xərci də üzərinə götürür? Bu nə adətdir, haradan gəlib o gözəl, sadə xınayaxdıları əlimizdən aldı...

Bəzən isə qızlara valideynləri tərəfindən kafe və restoranlarda xınayaxdı keçirilir. Bu isə tamamilə israfçılıqdır. Çünki eynilə toyu



xatırladır. Yəni bir gün sonra buna bənzər bir toy da keçirilir. Bütün bunlar isə adətlərimizi unutmağımızla yanaşı, israfçılıq və yorğunluqdan başqa bir şey deyil.

*(Ardı var)*

***Mətanət Məmmədova***

# Cəmil Həsənli indi də milli musiqimizi təhqir edir

İnsan ki danışanda nala-mıxa vurdu, sərsəm fikirlər səsləndirdi, deməli, həmin şəxs yetişib. Sayıqlamalarını ahıl yaşında siyasət xatirinə edirsə, bu, lap pis, vay belələrinin halına. O fikirdən uzağam ki, siyasət meydanında sərsəm ifadələr səsləndirənləri asmaq və ya kəsmək lazımdır, ən azı 5-10 sutkalıq "istirahəti" də arzu etmirəm. "Hənək-hənək axırda dəyənək" məsələsinin icra edilməsinə də qarşıyam. Sadəcə, "siyasətdəyəm, nə istəsəm danışa bilərəm" deyib, ləyaqətli və şərafətli insanları hədəf seçmək, sifarişli fikirlər səsləndirmək, dövlətçilik və milli maraqlar əleyhinə ittihamlar irəli sürmək yolverilməzdir. Bu məsələdə vicdan senzurası olmalıdır. Hər bir siyasi arenada vaxt keçirən "siyasətçi" yaşından və başından utanmalı, abır və həyasına sığınmalıdır. Təəssüflər olsun ki, məqbul hesab edilən tələblər əksər hallarda nəzərə alınmır. Azərbaycanın bugünkü siyasi arenasında elə şəxslər var ki, danışanda danışığına, yazanda yazısına fikir vermir, nə gəldi deyir və yazır. Bu da nəticədə haqlı ictimai qınağa gətirib çıxarır. Yenə də görünən ondan ibarətdir ki, ictimai qınaq da "siyasətçi"yə dərs olmur. Dəfələrlə AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Müsavatın təzə kostyumlu təkrar başqanı İsa Qəmbər və digərləri ictimai qınaq obyekti olmalarına baxmayaraq fəaliyyətlərində dönüş yaranmayıb. Yəni, toy mağaralarındakı zurnaçı kimi hədyanlarını və qarayaxmalarını püskürüblər. Fikir verin, Milli Şuranın rəhbəri Cəmil Həsənli az qala 80 yaşı haqlayıb, ancaq 4-5 yaşında olan uşaq ağılı ilə danışır. Hərdən də xaricdəki antimilli ünsürlər kimi xalqımızın maraqlarına zidd hədyanlar səsləndir.

### Cəmil Həsənli 10 il ərzində 59 dəfə xaricə səfər edib




Milli Şuranı yaradıb Cəmil Həsənlini onun sədri təyin etdikdən sonra bu məxluq yeniliklərə ilkin olaraq bığını qırxıb özünü abırsız formaya salmaqla başladı. Daha sonra kostyumdan imtina edib, üzərində bir neçə rəngin həkk olunduğu cins şalvarda mitinqlər də hay-küy saldı. Bununla da kifayətlənməyib, Böyük Britaniyada və ABŞ-da olarkən açıqlamalar verdi ki, o ikili vətəndaş almaq üçün Azərbaycanın və Böyük Britaniyanın hökumət orqanlarına müraciət edib. Məqsədinin və niyyətinin nədən ibarət olmasını araşdırmadan onu qeyd etmək olar ki, bu məxluqun tez-tez ABŞ-a və Avropaya səfərlər etməsi şübhəli suallar yaradır. Hesablamaya görə, C.Həsənli 2013--2023-cü illər ərzində 59 dəfə ABŞ-a və Avropaya səfərlər edib. Yenə də sual yaranır, hansı vəsait hesabına bu səfərlər reallaşıb? Digər sual isə ondan ibarətdir ki, C.Həsənli müxtəlif qaranlıq fondların və mərkəzlərin əməkdaşları ilə görüşlərində nələrdən danışıb, ümumiyyətlə, onlarla görüşlər nə dərəcə ehtiyac duyulub? Təbii ki, bu tip əsaslı suallara C.Həsənli cavab verməyəcək. Çünki üzərinə öhdəlik götürüb. Lakin şübhə edilmir ki, bu cür müəmmalı səfərlər və gizli görüşlərin əsas məğzini yeni təlimatların alınması və bu təlimatların yerinə yetirilməsi qarşılığında qrantların ayrılması məsələlərinin müzakirə edilməsidir. Təlimatların fərqli olduğu şübhəsidir.

### Cəmil Həsənli musiqimizi hədəfə alır

Son günlər musiqimizin hədəf seçilməsi C.Həsənlinin yeni təlimatla yükləndiyindən xəbər verir. Bu məxluq iddia edir ki, guya ekranlarda milli musiqimizin gözdən salınması, aşağılanması, təhqir edilməsi baş verir. Həm də iddia edir ki, bir vaxtlar çadır toyxanalarında oxunan ara mahnıları ekranlarda baş alıb gedir. Milli Şuranın sədri televiziya rəhbərlərini və aparıcıları da təhqir etməkdən, onlara qarşı ittihamlar irəli sürməkdən çəkinmir. Ümumiyyətlə, C.Həsənli paylaşdığı statusunu başdan ayağa qədər təhqir və ittihamlar üzərində yazıb. Bu da onu təsdiq edir ki, 80 yaşını haqlamaqda olan "siyasətçi" özünün deyil, başqalarının sözünü deyir. Birincisi, televiziya ekranlarında müxtəlif verilişlərin və reportajların olması təbiidir. Çünki ekran qarşısında oturanlar müxtəlif zövqlü və duyumlu tamaşaçılardır. Yalnız bir janrda musiqinin səslənməsi və ifadə olunması digər fərqli zövqli insanların televiziya ekranlarının qarşısında uzaqlaşması deməkdir. Elə mənlik olsa, yalnız televiziya ekranlarında Alim Qasımovun, Elnarə Abdullayevanın, Mələkxanın Əyyubovanın, Zabir Nəbizadənin, Abgül Mirzəliyevin, Mirələm Mirələmovun muğamlarının və mahnılarının səslənməsini istərdim. Nədən ki, mən bu musiqinin sədaları ilə böyümüşəm və başqa janrları heç xoşlamıram. Lakin bu, o demək deyil ki, digər milyonlarla tamaşaçının musiqi dinləmək zövqünə qarşı çıxım. Hər kəsin musiqi seçimində azaddır.

Bunu C.Həsənli bilmirsə, onu milli musiqimizi hədəf seçməyə təhrik edənlərdən soruşub, öyrənə bilər. Digər tərəfdən musiqi hara, C.Həsənli hara? C.Həsənli siyasətdən dəm vurursa, deməli, özünü hələ də siyasətçi hesab edir. İxtisası da uyğun gəlmir. Yəni özünü tarixçi kimi təqdim edir. Musiqi ilə bağlı nə savadı, nə də məlumatı yoxdur. Bu baxımdan sübuta yetirilir ki, C.Həsənli danışdıqca özünü daha çox batırır. Dilləndikcə özünü bir qədər də rüsvay edir. Ona görə də, bu yaşında danışmasa onun üçün daha faydalı olardı.

**İ.ƏLİYEV**

# Daha bir NATO üzvü Ukrayna missiasından çəkinir



Keçdiyimiz günlərdə Böyük Britaniyanın Baş naziri Rişi Sunak NATO qoşunlarını Ukraynaya göndərməyi düşünmədiyini bildirib. Baş nazir, eyni zamanda "Biz müdafiəyə qoyulan sərmayəmizi artırmalıyıq, çünki dünya onilliklər ərzində heç vaxt olmadığı qədər təhlükəli və gözlənilməzdir", deyib və beynəlxalq ictimaiyyəti müdafiə sərmayələrini artırmağa çağırıb. Rusiyadakı hədəflərə qarşı Qərb silahlarından istifadə ilə bağlı sorğu-sual zamanı Sunak bildirib ki, raketlər "beynəlxalq humanitar qanunlara uyğun olaraq" istifadə edilməlidir. Onu da qeyd edək ki, daha əvvəlki açıqlamalarda bildirilmişdi ki, Ukrayna ona verilən silahlardan necə istifadə edəcəyinə özü qərar verə bilər.Qərbli müttəfiqlərin Ukraynaya dəstəyinə paralel olaraq Rusiyadan çəkinməsi məsələsinə diqqət yetirərsək fevralın 26-da Parisdə keçirilən konfransdan sonra da oxşar bəyanatlar görə bilərik. Belə ki, Ukraynaya dəstək mövzusunda keçirilən konfransdan sonra Fransa prezidenti Emmanuel Makron bəyan edib ki, Ukraynanın qərbli müttəfiqləri Ukrayna Silahlı Qüvvələrini uzaqmənzilli silahlarla təmin etmək üçün koalisiya yaradacaqlar və gələcəkdə Qərb qoşunlarının Ukraynaya göndərilməsi də istisna edilməməlidir. Makronun bəyanatlarına cavab olaraq ABŞ, Almaniya, Polşa, Çexiya, Kanada, Macarıstan və Böyük Britaniya kimi ölkələr bu fikrə qarşı çıxıb. Görünən odur ki, Ukraynaya dəstəklə yanaşı Rusiyadan ehtiyyatlanma abu-havası yayılmaqdadır.

Belə ki, qoşunların göndərilməsi fikrini dəstəkləyən ölkələr belə, onların yalnız təlim missiyası yerinə yetirəcəyini açıqlayıblar. Lakin Fransanın əvvəlki bəyanatlarına görə, fransız qoşunları müəyyən sərhədləri qorumaq, təlimlərdə iştirak etmək və hava hücumundan müdafiəni dəstəkləmək üçün Ukrayna tərəfində müharibədə iştirak edə bilər. Bununla belə daha sonrakı açıqlamalarda, fransız əsgərlərinin "ön cəbhədə" iştirak etməsi istisna olunub.Fransız hərbiçilərin Ukraynada hərbi təlimlər keçməsi ilə bağlı müzakirələr davam edir. Ukrayna hazırda prosesi sürətləndirmək üçün müəyyən səylər göstərir və sənədlər hazırlayır. Məsələ ilə bağlı Ukrayna Müdafiə Nazirliyi aydınlıq gətirib, "Makron, Ukrayna qoşunlarına təlim keçmək üçün hərbi təlimatçılardan ibarət Avropa koalisiyasını yaratmaq istəyir". Almaniya Müdafiə Nazirliyindən gələn açıqlamaya görə Almaniya, Ukraynadakı hərbi təlimlərə qoşulmayacaq.İtaliyada keçirilən G7 sammitində Rusiyanın dondurulmuş aktivlərindən əldə edilən gəlirin Ukraynanın ehtiyacları üçün istifadəsi barədə qərar verən qərblilər iqtisadi müharibəni davam etdirsələr də birbaşa toqquşmalardan ehtiyyat edirlər. Görünən odur ki, Rusiyanın qətiyyətindən və münaqişənin yayılma riskindən çəkinən qərb öz hərbi dəstəyini əsirgəməkdə davam edəcək.






Beləliklə NATO və onun timsalındakı qərblilərin Ukraynanı müharibəyə cəsarətləndirdikdən sonra geri çəkilməsi halları yaşandıqca müharibənin taleyi bəlli olacaq. Almanya, Macarıstan bu günlərdə isə İngiltərənin ehtiyyatlanmasından güc alan Rusiyanın daha həvəslə mübarizə aparacağını təxmin etmək çətin deyil. Çünki hazırda bu məsələnin qarşılıqlı çəkinmə tarazlığı Rusiyanın ağırlığı ilə pozulub.

**Zərdüşt Quluzadə**

# Əvvəl Lalə və Kamil, indi Şərəf və Müyəssər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***Bu günlərdə Akademik Musiqili Teatrda Azərbaycan dramaturqu, Qazaxıstan və Qırğızıstan Respublikalarının Dövlət Mükafatları Laureatı Əmir Pəhləvanın "Sevənlərindir dünya" adlı liberettosu iki hissəli məzhəkə olaraq tamaşaçılara təqdim edildi. Bu, dramaturqun Musiqili Teatrda səhnələşdirilən ikinci əsəridir. Bundan öncə yaradıcı kollektiv Əmir Pəhləvanın "İstədiyim yar idi" adlı liberettosunu tamaşaçılara təqdim etmişdi.***
















"Sevənlərindir dünya" adlı məzhəkə istedadlı gənc rejissor Elməddin Dadaşovun quruluşunda səhnəyə qoyulub. Tamaşa iki hissədən ibarətdir. İki gəncin saf, təmənnasız eşqindən bəhs edən tamaşa həm də iki xalqın mədəniyyətini, insanlarını, tarixi qardaşlıq və dostluğunu tərənnüm edir. Tamaşa boyunca həm Azərbaycanın, həm də Özbəkistanın xalq rəqsləri nümayiş etdirildi, ev səhnələrində iki xalqın qardaşlığından bəhs edən məşhur "Görüş" filmindən səslər eşitdirildi.

Quruluşçu rejissoru Elməddin Dadaşov olan məzhəkənin baletmeysteri Kamilə Əliyeva, quruluşçu rəssamı Sənan Feyzullazadə, musiqi tərtibatçısı Məhəmməd Məmmədov, rejissor asissenti Tamilla Aslanovadır. Tamaşa boyunca maraqlı video-görüntü təminatı isə Murad həsənov tərəfindən təmin edildi. Qeyd edək ki, tamaşanın premyerası ötən ilin 21-22 iyununda olub.

Tamaşanın maraqlı sujet xətti var. Bu səhnə əsəri, Özbəkistandan Azərbaycanın paytaxtına Türkdilli ölkələrin konfransına gələn, orada çıxış edən Müyəssər adlı gənc özbək qızla, konfrans iştirakçısı azərbaycanlı gənc Şərəfin ilk görüşdə bir-birinə aşiq olmaları və bu eşq üçün ailələrini razı salmağa çalışmalarından bəhs edir. Tamaşada evlənmək ərəfəsində olan, iki ayrı mədəniyyəti təmsil edən gənc qız və gənc oğlanın ailəsində nələrin baş verməsi, hansı söhbətlərin getməsi, valideynlərin və gənclərin evlilik meyarları arasındakı fərq ustalıqla səhnələşdirilib.

Rolları Emin Zeynallı, Cəlal İsayev, Nəzrin İsmayılzadə, Ayan Qurbanova, əməkdar artist Nadir Xasıyev, Ruslan Mürsəlov, Telnaz Hüseynova, Ofeliya Məmmədova, Əliməmməd Novruzov, Elçin İmanov, Rəsmiyyə Nurməmmədova, Güldanə Əzimova, Nərminə Əliyeva, Gülnarə Əzizova, Eleanora Abbasova, əməkdar artist İqrar Salamov, Hüseyn Əlili, Cəbrayıl Cəbrayılov, Murad Əliyev ifa edirlər. Kütləvi səhnələrdə teatrın xor və balet truppası iştirak edir. Baş rol ifaçılarından başqa köməkçi rollar da olduqca məharətlə ifa edilib. Xüsusilə toy səhnəsi, qonaqlar, qonşu qızı detalları uğurlu alınıb.

Bütün tamaşaların görünən və görünməyən simaları var. Tamaşaçı adətən səhnədə gördüyü simaları tanıyır, alqışlayır. Lakin tamaşanın ərsəyə gəlməsi üçün səhnə arxasında çalışan onlarla əməkdaşın zəhməti də var. Akademik Musiqili Teatrın bədii yaradıcı heyəti, səhnənin tərtibatı, aktyorların geyim və qrimi ilə məşğul olan heyətin zəhməti də danılmazdır.

***Lalə Mehralı***

# "COP29 turizmin inkişafına töhfə verəcək"

"Dünyanın ən böyük beynəlxalq konfransı hesab edilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi ilə bağlı qəbul olunmuş qərar olduqca mühüm əhəmiyyət daşıyır. Bu, bir çox nüfuzlu beynəlxalq tədbirlərə ən yüksək səviyyədə ev sahibliyi etmiş ölkəmizə olan beynəlxalq etimadın növbəti göstəricisidir və Azərbaycanın daha da artan nüfuzunu nümayiş etdirir. 180-dən çox dövlətin nümayəndəsinin iştirak edəcəyi bu tədbir nəhəng tədbirdə ətraf mühitin mühafizəsi, ekologiya, "yaşıl enerji" sahələrində ixtisaslaşan qurumların təmsilçilərinin geniş müzakirəsi bu sahələrə sərmayə axıcılığını stimullaşdırır, "yaşıl iqtisadiyyat" quruculuğu yolunda təşəbbüsləri bir araya gətirir. Bu baxımdan COP29 sammiti Azərbaycanın etibarlı tərəfdaş ölkəkimi dünyada açıq təşəbbüslərin açıq məkanına çevrilməsini şərtləndirməklə, gələcək yeni enerji proqramlarında bölgənin aparıcı sərmatə nöqtəsinə çevrilməsini də təmin edəcəkdir". Bu sözləri SİA-ya Milli Məclisin deputatı Aydın Hüseynov deyib.




Millət vəkili qeyd edib ki, alternativ enerji ilə bağlı layihələr və "yaşıl enerji"nin dünya bazarına nəqli Azərbaycanın enerji siyasətində prioritet sahələrdən biridir və bu siyasət nəticə etibarilə Avropadakı tərəfdaşlarımızın maraqlarına xidmət edir: "Bu mötəbər tədbirin "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilməsi nəticəsində Azərbaycan özünün ən müsbət tərəflərini dünyaya çatdıra biləcək. Eyni zamanda, ölkəmiz həmin istiqamətlər üzrə yaxın bir neçə 10 illiyə hesablanmış yeni siyasətin formalaşdırılması üçün çox əlverişli imkanlar qazanacaq. Yəni, bu baxımdan düşünürəm ki, konfrans çox əhəmiyyətli tədbirdir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə isə Azərbaycanın bütün dövlət, özəl qurumları bu və ya digər formada birbaşa və ya dolası ilə adıçəkilən proseslərdə fəal iştirak etməklə dövlətin bununla bağlı mövcud siyasətinə də dəstək verməş olacaqlar".

A.Hüseynov bildirib ki, COP29-a beynəlxalq nəhəng iqtisadi tədqiqat və investisiya mərkəzlərinin, maliyyə institutlarının da böyük marağı vardır: "Onların sırasında Dünya Bankının (DB) xüsusi dəstəyi mövcuddur və Azərbaycan arasında faydalı münasibətlər fonunda DB-nin bu zirvə görüşü prosesində ölkəmizdə hərtərəfli dəstək göstərəcəyi şübhəsizdir. DB "yaşıl iqtisadiyyat" böyük önəm verir, sərmayələr cəlb edir. Xüsusilə ətraf mühitin mühafizəsi, ekologiya, "yaşıl enerji" sahələrində ixtisaslaşan qurumlarla sıx əməkdaşlıq edir, iqlim dəyişmələrinə həsr edilmiş konfranslara dəstək verir. Azərbaycanın da hədəfləri bu istiqamətə yönəlib, "yaşıl iqtisadiyyat" quruculuğu istiqamətində davamlı proqramlara start verilib, 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Ona görə də DB-nin COP29 ili çərçivəsində ölkəmizlə üst-üstə düşən hədəf prioritetlərinə dəstək verəcəyi istisna deyil, bank artıq bu barədə öz niyyətini bəyan edib. Millət vəkili bildirib ki, Azərbaycanın ev sahibliyi edəcəyi COP29 turizmin inkişafına da töhfə verəcək: "Bir aya yaxın dövrdə 80 mindən çox turistin Azərbaycanda olması iaşə sektorunun, xidmət və turizmin əlavə dividentlər qazanması deməkdir".

***Ləman Sərraf***

SƏS
21 iyun
2024-cü il

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Abituriyentlər ixtisas seçimini necə etməlidirlər?



MÜNASİBƏT

"İxtisas seçimi üçün işlər bir neçə istiqamətdə planlı və ardıcıl formada aparılmalıdır". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elnur Aydın deyib. O bildirib ki, ilk öncə düzgün ixtisas seçimi üçün abituriyent barədə müfəssəl məlumatlar olmalıdır: "Abituriyent bəzi istedad, qabiliyyət və bacarıqlarını bəzən başqalarından "gizlədə" bilər və ya hələ "kəşf etməmiş" ola bilər. Daha dəqiq desək öz bacarıqlarının fərqində olmaya bilər. Bu səbəbdən ixtisas seçimi aparılarkən abituriyent barədə onun özündən, o cümlədən valideynləri, dostları, sinif yoldaşları və müəllimlərindən məlumatların toplanması seçimin doğru olma ehtimallarını artırar.

Seçim edən zaman onların meyl, maraqları, qabiliyyətləri, həmin ixtisasa həvəsinin olmasının müəyyənləşdirilməsi vacibdir. Seçəcəyi ixtisasın gələcək perspektivdə tələbatlılığı, əmək bazarında aktual ixtisas olması, abituriyentin gələcəkdə işləyəcəyi və yaşayacağı yerdə həmin ixtisasın tələbatlılığının araşdırılması önəmli məsələlərdir. Bundan başqa seçəcəyi ixtisas və peşə üzrə mütəxəssislə söhbət etmək, onun iş gününü müşahidə etmək, ona işin asan və çətin tərəfləri ilə bağlı suallar vermək imkanı yaradılmalıdır. Abituriyent barədə və onun seçəcəyi ixtisaslar barədə nə qədər çox və əhəmiyyətli məlumatlar toplansa ixtisas seçimi bir o qədər dəqiq aparıla bilər.

İxtisas seçimində abituriyentin meyl, maraq, istedad və qabiliyyətlərinin seçəcəyi ixtisasa və peşəyə adekvat olması ixtisas seçiminin əsas ideyası olmalıdır. İxtisas seçimi zamanı seçim zamanı qeyri - peşəkar tövsiyələr, valideynlərin yersiz müdaxilələri yolverilməzdir. İxtisas seçiminin real datalar üzərindən peşəkarlar tərəfindən aparılması daha yaxşı olar. Bir çox inkişaf etmiş ölkələrdə ixtisas seçiminə dəstək verən özəl və ya dövlət tərəfindən karyera məsləhətçiləri və ixtisas bələdçiləri mövcuddur. Karyera planlaması və ixtisas seçimi üçün dünyada məşhur olan Co Harry pəncərəsi kimi klassik metodlar da mövcuddur. Azərbaycanda da karyera məsləhətçiləri institutu formalaşmaqdadır. Ölkəmizdə dövlət ümumtəhsil məktəblərində karyera məsləhəti, ixtisas seçiminə dəstək verən konkret işçi yoxdur. Bu işdə boşluq var. Məktəblərdə karyera məsləhəti, ixtisas seçimi aparacaq konkret ştatın olması zəruridir".

***Söylü Ağazadə***

## Gimnastlarımız beynəlxalq turnirdə 13 medal qazanıb



Bədii gimnastika üzrə Azərbaycan millisi İtaliyanın Parma şəhərində keçirilən ənənəvi beynəlxalq turnirdə uğurla çıxış edib. Azərbaycan Gimnastika Federasiyasından SİA-ya verilən məlumata görə, Olimpiya Ehtiyatları Gimnastika Məktəbini təmsil edən idmançılar müxtəlif yaş qruplarında ümumilikdə 5 qızıl, 6 gümüş və 2 bürünc medal qazanıblar.

15 yaşlı gimnastlar arasında Leyla Məhəmmədova 1-ci yeri tutub. Olimpiya Ehtiyatları Gimnastika Məktəbinin direktoru Xəqani Fərəcov yarışın kifayət qədər rəqabətli keçdiyini bildirib: "İlk dəfədir bu turnirdə mübarizə aparırdıq. Ümumilikdə 13 gimnast ölkəmizi təmsil edirdi. Bu cür beynəlxalq turnirlərdə iştirak etmək idmançılar üçün böyük fürsətdir".

# Bu gün 35 dərəcə isti olacaq - PROQNOZ



İyunun 21-də gözlənilən hava şəraiti açıqlanıb. Mili Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Səhər arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 20-25° isti, gündüz 28-32° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu olacaq. Nisbi rütubət 60-70 % olacaq. Azərbaycanın bəzi rayonlarında arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntıların intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman müşahidə ediləcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 30-35° isti, dağlarda gecə 11-16° isti, gündüz 18-23° isti olacaq.

## ELAN

"VİP DENTAL" MMC-yə məxsus (VÖEN:1400880291) özəl tibb fəaliyyətinə dair İSN/L-734/2016 qeydiyyat nömrəli 17.03.2016-cı il tarixli lisenziya və əlavəsi itirildiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Bəhruz Quliyev İsa və Hüseyn Qaraşovlara atası

**Tapdıq kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200